# YENİ AZƏRBAYCAN

09 may 2026-cı il, şənbə
№ 081 (7148)
Qiymәti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!



# Milli gücü yumruq kimi birləşdirən Lider

Bax səh. 2

## Ümummilli Liderin həyat və fəaliyyəti fədakarlıq nümunəsidir

Bax səh. 3

## Heydər Əliyev: müasir Azərbaycanın strateji yol xəritəsinin müəllifi

Bax səh. 3

## Hər şey cəbhə üçün, hər şey qələbə üçün...

Müharibələr ölüm-itim, qan-qada, səfalət, aclıq, həyatların yarımçıq kəsilməsi, doğmaların bir-birlərindən ayrılması deməkdir. Bəşəriyyət belə böyük faciələrdən biri ilə 1941-1945-ci illəri əhatə edən İkinci Dünya müharibəsində üz-üzə qalıb. Həmin müharibə barədə statistika dəhşət saçır. 60-dan çox dövlət, 1.700 milyon insan - dünya əhalisinin dörddə üçü - bu müharibəyə qatılıb. Döyüşlər təxminən 40 ölkənin ərazisində gedib. Müharibə 50 milyon insanın həyatını alıb, təxminən 100 milyon insan yaralanıb və yaxud bu və ya digər dərəcədə əlillik qazanıb.

Azərbaycanın da daxil olduğu keçmiş SSRİ İkinci Dünya müharibəsində 30 milyon nəfər itki verib. 1945-ci il mayın 8-dən 9-a keçən gecə alman generalı Vilhelm Keytel qeyd-şərtsiz təslim aktını imzalayıb və bununla da İkinci Dünya müharibəsi faşizm üzərində qələbə ilə başa çatıb. Bu gün İkinci Dünya müharibəsində qələbənin 81-ci ildönümüdür

İkinci Dünya müharibəsində döyüşlər respublikamızdan uzaqlarda gedib. Ancaq Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan bizim ümumi qələbəmizə sanballı töhfə verib. Buna görə də respublikamızda da Qələbə günü yüksək səviyyədə qeyd olunur.

Müxtəlif arxivlərdə Azərbaycanın İkinci Dünya müharibəsində fəal iştirakını təsdiqləyən çoxlu materiallar var. Eyni zamanda, veteranlarımız qanlı döyüş səhnələrinin canlı şahidləridirlər. Müharibənin elə ilk günlərindən bütün Azərbaycan...

Bax səh. 2

## Parlamentin növbəti uğuru...

Ölkəmizin xarici siyasətində parlament diplomatiyası mühüm yer tutur. Bu baxımdan, Milli Məclisin beynəlxalq fəaliyyəti xüsusi qeyd olunmalıdır. Məlumdur ki, Milli Məclis bir sıra beynəlxalq təşkilatlarda təmsil olunur, eləcə də bir çox ölkələrin parlamentləri ilə dostluq qrupları fəaliyyət göstərir. Əlbəttə, parlament çox mühüm hakimiyyət qoludur və onun işində beynəlxalq fəaliyyət xüsusi yer tutur. Parlamentarilər beynəlxalq miqyasda Azərbaycan həqiqətlərinin təbliği istiqamətində öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar.

Yeri gəlmişkən, Milli Məclisin sədri Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının toplantısında iştirak edib. Belə ki, mayın 7-də Monteneqroda təşkilatın üzv və tərəfdaş ölkələrinin parlament sədrlərinin 1-ci Sammiti keçirilib. Tədbirdə çıxış edən Sahibə Qafarova son 20 il ərzində Aralıq Dənizi Parlament Assambleyası parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, strateji əhəmiyyətə malik regionda dialoqun, qarşılıqlı anlaşmanın, sülh və sabitlik naminə ortaq məsuliyyətin təşviqi baxımından mühüm platforma kimi özünü təsdiqlədiyini vurğulayıb. Azərbaycanın coğrafi baxımdan Aralıq dənizi regionunun bir hissəsi olmasa da, Aralıq dənizi hövzəsi və Körfəz ölkələri ilə uzunmüddətli əlaqələrə və konstruktiv münasibətlərə malik olduğunu bildirən Milli Məclisin sədri deyib ki, ölkəmiz enerji marşrutlarının və təchizatının şaxələndirilməsi vasitəsilə regional və beynəlxalq enerji təhlükəsizliyinə töhfə verir. Bununla yanaşı, qeyd olunub ki, ölkəmiz Şərqlə Qərb arasında nəqliyyat...

Bax səh. 4

## Yeni investisiya gündəliyi

Ölkəmizdə səfərdə olan İslam İnkişaf Bankı (İİB) Qrupunun nümayəndə heyətinin səfəri mühüm dövlət proqramlarının və özəl sektorda layihələrin maliyyələşdirilməsi üçün yeni fürsət kimi qiymətləndirilə bilər. Nümayəndə heyətinin rəhbəri Məhəmməd Əl-Casirin vurğuladığı kimi Azərbaycan ilə İİB arasında əməkdaşlığın inkişafı qürurvericidir və ayrılmış sərmayələr sosial-iqtisadi layihələrin maliyyələşdirilməsində mühüm töhfə verib. Maliyyələşdirmə çərçivəsində Azərbaycanın su və meliorasiya, nəqliyyat infrastrukturunun inkişafı və dəmir yolunun modernizasiyası təmin olunub. Eləcə də, özəl biznesə müxtəlif maliyyə təchizatı dəstəyi göstərilib. Bundan başqa, İslam Bankı Texniki Əməkdaşlıq Proqramı çərçivəsində bilik və təcrübə mübadiləsinin təşviqi, kənd təsərrüfatı, su idarəçiliyi və rəqəmsal transformasiya sahələrində texniki yardım və birgə təşəbbüslərin genişləndirilməsində yaxından iştirak etməkdədir. Ümumilikdə, İİB tərəfindən 20-yə yaxın dövlət və özəl layihənin icrasına 1,2 milyard dollardan çox vəsait ayrılıb.

Baş ofisi Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşən, nizamnamə kapitalı təxminən 10 milyard dollar olan İslam Bankı ölkəmizdə maliyyə sabitliyinin möhkəmlənməsində də öz töhfəsini əsirgəməyib, dövlət şirkətlərində maliyyə idarəçiliyinin gücləndirilməsi, dövlət borcunun idarə edilməsi üzrə ortamüddətli strategiya sənədinin hazırlanması, dövlət müəssisələrinin idarə edilməsində şəffaflığın və effektivliliyinin artırılması, eləcə də dövlət büdcəsinin fiskal qayda və orta müddətli fiskal çərçivə...

Bax səh. 4

## İnkişaf etmiş dövlətlər qrupunda

Azərbaycan kibertəhlükəsizlik sahəsində beynəlxalq mövqeyini əhəmiyyətli şəkildə gücləndirib. Ölkəmiz Milli Kibertəhlükəsizlik İndeksində (NCSI) 21 pillə irəliləyərək 52-ci yerdən 31-ci sıraya yüksəlib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin məlumatına görə, "e-Governance Academy"nin hazırladığı beynəlxalq indeks üzrə ölkəmizin göstəricisi 75,83 baldan 83,33 bala çatıb.

NCSI 100-dən çox ölkəni əhatə edir və kibertəhlükəsizlik sahəsindəki ən etibarlı beynəlxalq ölçmə alətlərindən biri hesab olunur. İndeks yalnız texniki imkanları deyil, eyni zamanda hüquqi çərçivəni, idarəetmə qabiliyyətini və milli hazırlıq səviyyəsini qiymətləndirir. 12 əsas sahə və 49 indikator üzrə aparılan qiymətləndirmə göstərir ki, Azərbaycan kibertəhlükələrə operativ müdaxilə, milli siyasətin formalaşdırılması, institusional imkanlar və beynəlxalq əməkdaşlıq istiqamətlərində nəzərəçarpan irəliləyiş əldə edib.

Azərbaycanın qazandığı nailiyyətlərin əsas təməlində son illər ərzində kibertəhlükəsizlik sahəsində həyata keçirilən məqsədyönlü siyasət mühüm yer tutur. Bir neçə il əvvəl ölkəmizdə Kibertəhlükəsizlik Mərkəzinin yaradılması və fəaliyyətə başlaması, davamlı olaraq müxtəlif sahələrin təmsilçiləri üçün kibertəhlükəsizlik təlimlərinin keçirilməsi öz mühüm təsirini göstərib. "Rəqəmsal hökumət"ə keçidin təmin edilməsi və "Hökumət buludu"nun yaradılması istiqamətində işlər dayanmadan davam etdirilir. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə...

Bax səh. 4

## Fransanın Cənubi Qafqaz "sevdası"

Ermənistanın 30 il davam etmiş işğal siyasəti bölgənin iqtisadi potensialının tam açılmasına mane olmaqla yanaşı, fərqli xarici maraqların regiona müdaxilə cəhdlərinə də şərait yaratmışdı. Məhz Ermənistanın əli ilə Cənubi Qafqaza uzanan "əllər" uzun illər konfrantasiyaların davam etməsində, normal münasibətlərin olmamasında maraqlı idilər. Halbuki, Cənubi Qafqazın geosiyasi mövqeyi, enerji resursları, tranzit imkanları və Avropa ilə Asiyanı birləşdirən strateji xətt üzərində yerləşməsi onu beynəlxalq siyasətin mühüm aktorlarından birinə çevirə bilərdi. Bu isə adıçəkilən qrupların və ya mərkəzlərin, hətta dövlətlərin planları ilə uzlaşmırdı.

2020-ci ildə Azərbaycanın yaratdığı yeni siyasi və hərbi reallıqlar bölgədə tamamilə fərqli mənzərə formalaşdırdı - regionda yeni əməkdaşlıq modeli yarandı. Bu model qarşıdurma deyil, kommunikasiyaların açılması, iqtisadi inteqrasiya və uzunmüddətli sülh konsepsiyasına əsaslanır.

Təəssüfləndirici haldır ki, bölgədə yaranan yeni reallıqlar yenə də bəzi dairələrin maraqları ilə üst-üstə düşmür. Uzun illər Cənubi Qafqazda idarə olunan gərginlikdən siyasi və iqtisadi üstünlüklər əldə edən bu qüvvələr yeni mərhələdə təsir imkanlarını itirmək istəmirlər. Xüsusilə Fransa son dövrlərdə Ermənistan üzərindən regionda yenidən mövqe qazanmağa çalışır. Parisin İrəvana münasibətdə nümayiş etdirdiyi "xüsusi diqqət" ilk baxışda humanitar və siyasi dəstək kimi təqdim olunsa da, proseslərin dərinliyinə...

Bax səh. 6



# Milli gücü yumruq kimi birləşdirən Lider

Parlaq şəxsiyyətlər özlərinin zamanı qabaqlayan ideyaları, çərçivəyə sığmayan fəaliyyətləri, taleyüklü seçim anlarında doğru qərarlar qəbul etmələri ilə milli gücü yumruq kimi birləşdirirlər və xalq, dövlət naminə liderlik missiyası yerinə yetirirlər. Hələ sağlığında ikən Ulu Öndər zirvəsinə yüksələn böyük siyasətçi Heydər Əliyev Azərbaycan üçün belə tarixi şəxsiyyətdir.

Zaman ötür, fəqət Onun ideyaları, tövsiyələri heç vaxt köhnəlmir. Əksinə, illər ötdükcə bu böyük şəxsiyyətin respublikamızın, hər bir azərbaycanlının taleyində müstəsna rol oynadığı daha aydın dərk olunur və dərin minnətdarlıq hissi ilə xatırlanır. Mayın 10-da dahi Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü tamam olur.

## Azərbaycanın milli intibahı

Böyük siyasətçi Heydər Əliyevin Azərbaycana rəhbərliyi ideoloji baxımdan iki fərqli dönəmə təsadüf edib. Bunlardan birincisi xüsusilə də keçmiş ittifaqın tərkibində olan milli respublikaların rəhbərləri qarşısında ciddi məhdud çərçivələr qoyulduğu sovet dövrü idi. Rəhbər şəxslərin bu çərçivələri aşmaları yolverilməz sayılırdı. 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gələn Heydər Əliyev isə rejimin buxovlarını məharətlə sındıraraq milli dirçəlişə, yeni intibaha, gələcəkdə müstəqil yaşamağa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail oldu. Azərbaycanın gələcək inkişafı baxımından güclü iqtisadiyyat qurulmasının önəmini yüksək dəyərləndirən Heydər Əliyev qısa müddətdə respublikamızı keçmiş ittifaqın aqrar əlavəsindən çıxardaraq yüksək texnologiyalı sənaye inkişafına istiqamətləndirdi.

Heydər Əliyevin azərbaycanlı gəncləri keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərməsi uzaqgörənliyin və milli təəssübkeşliyin zirvə nöqtəsi sayıla bilər. Ümumilikdə, Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dönəmində SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 18 minədək yüksək ixtisaslı azərbaycanlı mütəxəssis hazırlandı.

Heydər Əliyevin Azərbaycanın sabahı naminə misilsiz fəaliyyəti bütün mühüm istiqamətləri əhatə edirdi. Bu sırada Onun milli mədəniyyətə, ədəbiyyata, Azərbaycan dilinə böyük qayğısını xüsusi qeyd etmək lazımdır. Milli ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli ideologiyamızın funksional vahidi olan milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi strateji addım oldu. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı.

Ümumiyyətlə, Heydər Əliyev əvvəlcə keçmiş ittifaq daxilində rejimin məhdudiyyətlərini yararaq milli dirçəlişə, gələcək müstəqil inkişafa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail olub. Bu gün o illərdə Heydər Əliyevin çox böyük səyləri hesabına yaradılan zəngin irs müstəqil Azərbaycanın maddi, mənəvi və mədəni əsasları qismində çıxış edir.

## Heydər Əliyev epoxasının ikinci mərhələsi - müstəqilliyin qorunması

Uzaqgörən siyasətçi olan Heydər Əliyev deyirdi: "Müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir". Tale elə gətirdi ki, həmişə Azərbaycanın müstəqilliyini arzulayan, bütün şüurlu fəaliyyətini bu istiqamətdə quran Heydər Əliyev respublikamızın müstəqilliyini qorumaq missiyasını da elə Özü yerinə yetirdi.

Əvvəlcə onu qeyd edək ki, Heydər Əliyevin Azərbaycanın real müstəqilliyinə nail olmaq üçün açıq mübarizədə mübarizəsi Onun həyatının Naxçıvan dövründən başlayıb. Keçmiş ittifaq rəhbərliyindən uzaqlaşdırılan Heydər Əliyev 1990-cı ildə Moskvadan Bakıya qayıtmaq məcburiyyətində qaldı. Lakin imperiya nökərləri-bəhs olunan dövrdə Azərbaycanın rəhbərliyində təmsil olunan şəxslər Heydər Əliyevin Bakıya qayıdışını kresloları üçün təhlükə hesab edərək Onun paytaxtda qalmasını əngəllədilər. Heydər Əliyev doğulduğu Naxçıvana üz tutdu və burada insanlar Onu böyük sayğı ilə qarşıladılar. Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. O, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar Respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra-17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Sessiyada Onun təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

O dövrdə Heydər Əliyevin atdığı bu kimi addımlar böyük cəsarət nümunəsi idi. Sonrakı mərhələdə Heydər Əliyev Azərbaycan naminə fəaliyyətini Bakıda davam etdirdi. O dövrün mənzərəsini göz önündə canlandıraq. Xaos, iqtisadi və siyasi böhran, vətəndaş qarşıdurması, torpaqlarımızın işğal altına düşməsi, cəmiyyətdəki sabahkı günə ümidsizlik müstəqilliyin ilk illərində ölkəmizi səciyyələndirən əsas cəhətlər idi. Vəziyyət o qədər ciddi hal almışdı ki, hətta müstəqilliyin itirilməsi təhlükəsi də real idi.

Müstəqilliyimiz, respublikanın gələcəyi üçün həmin böhranlı günlərdə xalq son ümidini sınanmış oğlu Heydər Əliyevə bağlayaraq təkidlə Onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini tələb edirdi. Bütövlükdə Azərbaycanın inkişaf salnaməsini yazan Heydər Əliyev bu dəfə də xalqının yanında olmağa qərar verərək 1993-cü il iyunun 9-da Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir qədər sonra isə Milli Məclisin qərarı ilə Heydər Əliyev Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. O, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti oldu.

Heydər Əliyevin müdik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu.

## Ata vəsiyyətinin yerinə yetirilməsi

Heydər Əliyevin ən böyük amalı Azərbaycanın müstəqilliyinin qorunması və ərazi bütövlüyümüzün təmin olunması idi. Onun səyləri və diplomatik məharəti sayəsində 1994-cü ilin mayında atəşkəs müqaviləsinin imzalanması Azərbaycana öz gücünü səfərbər etmək, iqtisadiyyatını gücləndirmək və yüksək döyüş qabiliyyətinə malik ordu qurmaq üçün imkanlar açdı. Sonrakı mərhələdə Prezident İlham Əliyev bu imkanlardan səmərəli istifadə etməklə respublikamızı yeni inkişaf mərhələsinə yüksəltdi.

Prezident İlham Əliyev ölkənin iqtisadi və hərbi potensialına əsaslanmaqla daim ərazi bütövlüyümüzün təmin olunması məsələsini Azərbaycanın gündəliyinin mərkəzində saxladı. Azərbaycan haqq və ədalətin bərpasına 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında nail oldu. Vətən müharibəsində Silahlı Qüvvələrimizin şücaəti sayəsində ərazi bütövlüyümüz hərbi-siyasi yolla təmin olundu. 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticəsində isə Qarabağda separatizmin kökü birdəfəlik kəsildi. Beləliklə, Müzəffər Lider İlham Əliyev Azərbaycan xalqının mental dəyərlər sistemində mühüm yer tutan ata vəsiyyətinə əməl etmiş oldu.

*Mübariz ABDULLAYEV*

# Hər şey cəbhə üçün, hər şey qələbə üçün...

## İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 81-ci ildönümü tamam olur

Müharibələr ölüm-itim, qan-qada, səfalət, aclıq, həyatların yarımçıq kəsilməsi, doğmaların bir-birilərindən ayrılması deməkdir. Bəşəriyyət belə böyük faciələrdən biri ilə 1941-1945-ci illəri əhatə edən İkinci Dünya müharibəsində üz-üzə qalıb. Həmin müharibə barədə statistika dəhşət saçır. 60-dan çox dövlət, 1.700 milyon insan - dünya əhalisinin dörddə üçü - bu müharibəyə qatılıb. Döyüşlər təxminən 40 ölkənin ərazisində gedib. Müharibə 50 milyon insanın həyatını alıb, təxminən 100 milyon insan yaralanıb və yaxud bu və ya digər dərəcədə əlillik qazanıb.

Azərbaycanın da daxil olduğu keçmiş SSRİ İkinci Dünya müharibəsində 30 milyon nəfər itki verib. 1945-ci il mayın 8-dən 9-a keçən gecə alman generalı Vilhelm Keytel qeyd-şərtsiz təslim aktını imzalayıb və bununla da İkinci Dünya müharibəsi faşizm üzərində qələbə ilə başa çatıb. Bu gün İkinci Dünya müharibəsində qələbənin 81-ci ildönümüdür

**Qafqazdan Berlinə qədər keçilən şərəfli döyüş yolu**

İkinci Dünya müharibəsində döyüşlər respublikamızdan uzaqlarda gedib. Ancaq Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan bizim ümumi qələbəmizə sanballı töhfə verib. Buna görə də respublikamızda da Qələbə günü yüksək səviyyədə qeyd olunur.

Müxtəlif arxivlərdə Azərbaycanın İkinci Dünya müharibəsində fəal iştirakını təsdiqləyən çoxlu materiallar var. Eyni zamanda, veteranlarımız qanlı döyüş səhnələrinin canlı şahidləridirlər. Müharibənin elə ilk günlərindən bütün Azərbaycan cəmiyyəti faşizmə qarşı mübarizəyə köklənib. Müharibə illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və şücaət nümunələri göstərib. Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılıb. Azərbaycanın 700 mindən çox igid oğlu və qızı cəbhəyə yollanıb. Respublikamızı təmsil edən diviziyalar Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçərək düşmənə sarsıdıcı zərbələr vurublar. Həmvətənlərimizin 130 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. Azərbaycandan olan 170 min əsgər və zabit keçmiş SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunub. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz şücaətləri ilə xalqımızın tarixinə yeni qəhrəmanlıq səhifələri yazıblar...

**Arxa cəbhənin böyük fədakarlığı**

İkinci Dünya müharibəsi illərində ön xətdən uzaqda yerləşən şəhər və kəndlərin sakinləri - əsasən qadınlar, qocalar, uşaqlar, əlillər gecə-gündüz "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ilə çalışırdılar. Respublikamızda da arxa cəbhənin fədakarlığı ən yüksək səviyyədə olub. Azərbaycanın da daxil olduğu keçmiş SSRİ-yə qarşı ildırımsürətli müharibə planı hazırlanmışdı. Müharibənin ilk illərində ittifaqın bir sıra şəhərləri və oradakı müəssisələr, o cümlədən də silah-sursat zavodları işğal altında qalmışdı. Belə şəraitdə respublikamızdakı sənaye müəssisələri gecə-gündüz fəaliyyət göstərərək cəbhə üçün zəruri olan müxtəlif məhsullar, həmçinin silah istehsal etməyə başlamışdı. Müharibə illərində Azərbaycan cəbhənin yanacaqla ən mühüm təchizatçısı olub. Faşist Almaniyasının ən mühüm planlarından biri məhz Bakını tutmaq idi. Təsadüfi deyil ki, Hitlerə təqdim edilən bayram tortunun üzərində "Xəzər dənizi" sözləri yazılmışdı. Əgər neft Bakısı işğala məruz qalsa idi, müharibənin yekunu tamam fərqli ola bilərdi.

Respublikamızda qısa müddətdə iqtisadiyyatı cəbhəyə xidmət istiqamətinə yönəltmək məqsədi ilə böyük işlər aparılıb. Bakı, sözün əsl mənasında, döyüşən ordu üçün silah-sursat istehsalı mərkəzinə çevrilib. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz qəhrəmanlıq və fədakarlıq göstərib, cəbhəni və sənayeni yanacaqla təmin ediblər. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında aviasiya benzini alınmasının yeni texnologiyası yaradılıb. Neftçilərimizin fədakar əməyi sayəsində Azərbaycan tarixində neft hasilatı üzrə rekord göstərici əldə olunub. 1941-ci ildə respublikamızda 23,5 milyon ton "qara qızıl" çıxarılıb. Bu, SSRİ-də çıxarılan bütün neftin 71,4 faizini təşkil edirdi. Bütövlükdə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları veriblər. Statistik məlumatda bildirilir ki, müharibə illərində keçmiş ittifaqda hər beş təyyarədən, tankdan və avtomobildən dördü Bakıdan göndərilən yanacaqla işləyib.




**Heç kəs unudulmur, heç nə yaddan çıxmır**

Azərbaycanın müstəqilliyinin ilk illərində respublikamızda 9 May - Qələbə Gününə münasibət tamam fərqli idi. O dövrdə qeyri-legitim yolla hakimiyyətə gələn AXC-"Müsavat" cütlüyü 9 May - Qələbə Gününün bayram təqvimindən silinməsinə cəhdlər edirdi. Təəssüf doğuran haldır ki, həmin dövrdə müharibə veteranları mənəvi terrora məruz qalırdı, kütləvi informasiya vasitələrində onlara qarşı qəddar kampaniya aparılırdı. Yalnız ulu öndər Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ölkənin siyasi rəhbərliyinə gəldikdən sonar 9 May - Qələbə Günü bayram təqvimində bərpa olundu. O vaxtdan həmin gün respublikamızda dövlət bayramı kimi qeyd olunur.

Ulu öndər Heydər Əliyev əsasını qoyduğu ənənə sonrakı mərhələdə Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Hər il ölkəmizdə veteranlar üçün mükafatlar ayrılır, onların problemləri həll olunur. Prezident İlham Əliyev Qələbənin 81-ci ildönümü ərəfəsində 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb. Bəhs olunan Sərəncam müvafiq kateqoriyadan olan vətəndaşların daim yüksək diqqət və qayğı ilə əhatə olunduqlarını bir daha təsdiqləyir.

Bəli, heç kim unudulmur və heç nə yaddan çıxmır. Dövlət başçısının imzaladığı Sərəncama əsasən, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2750 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1500 manat məbləğində birdəfəlik maddi yardım verilməsi qərara alınıb. Bunun üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılıb

*Mübariz FEYİZLİ*

# Ümummilli Liderin həyat və fəaliyyəti fədakarlıq nümunəsidir

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü qeyd edirik. İllər keçdikcə dahi şəxsiyyətin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərinin miqyasının ölçüyəgəlməzliyi daha aydın görünür. Azərbaycan xalqının müstəqillik arzusunu əbədiləşdirən Ulu Öndər Heydər Əliyev adını tariximizə müstəqilliyimizin xilaskarı kimi qızıl hərflərlə yazdırdı. Onun 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizin həyatında yeni bir mərhələnin başlanğıcı oldu. Bu mərhələdə Ümummilli Lider Heydər Əliyev düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanı yenidən qurdu, dövlətçiliyimizin əsasları yaradıldı. Azərbaycan müstəqilliyimizin bərpasının ilk illərinin xaosundan, özbaşınalıqlarından xilas oldu, torpaqlarımızın işğalının qarşısı alındı, Azərbaycanın müstəqil dövlət kimi varlığı təsdiqləndi. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın bir amal ətrafında birliyi yaradıldı, hər kəs müstəqil Azərbaycanın bu günü və gələcəyi üçün Ulu Öndər Heydər Əliyevin ətrafında sıx birləşdi, yeni-yeni hədəflərə doğru inamlı addımlar atıldı. Azərbaycanı işıqlı yola çıxaran Ümummilli Liderin yaratdığı möhkəm təməl bundan sonra da ölkəmizin davamlı uğurlarını təmin edəcək. Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəmizin müstəqilliyi naminə göstərdiyi xidmətləri ilə Ümummilli Lider adını qazanan Heydər Əliyev bu çağırışı edirdi ki, kim özünü təmsil olunduğu millətin övladı hesab edirsə, canından artıq sevdiyi Vətəni onun üçün and yeri olmalıdır. Həmçinin bildirirdi ki, Vətən birdir, hamı bu Vətən üçün çalışmalıdır. Azərbaycançılıq ideologiyasının inkişafı və təbliği Ulu Öndərin hakimiyyətinin hər iki dövründə əsas hədəflərdən olub. Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələrindən biri idi. Uğurlu siyasəti ilə öncə ölkəmizdə sabitlik yaradan Ulu Öndər Heydər Əliyev bu çağırışı etdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Həmçinin dünya təcrübəsinə istinadən bu reallığı da diqqətə çatdırdı ki, heç bir dövlət səylər birləşdirilmədən, təcrübə mübadiləsi aparılmadan təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Azərbaycanın malik olduğu təbii resurslardan səmərəli istifadənin təmin edilməsi əsas prioritet kimi qarşıda dayandı. Ümummilli Liderin böyük səyləri nəticəsində 1994-cü il 20 sentyabr tarixində "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycanın iqtisadi və siyasi mövqeyinin möhkəmlənməsi təmin edildi. Öz təbii sərvətlərinin əsl sahibinə çevrilən xalq özünə diqqət və qayğının şahidinə çevrildi. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Azərbaycanın neft strategiyasının əsas tezislərindən biri budur ki, ölkənin neft ehtiyatları xalqa məxsusdur və bu sərvət təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur.

Ümummilli Liderin həyata keçirdiyi kompleks tədbirlər yenidən qurulmuş Azərbaycanın hərtərəfli inkişafını təmin etdi. Ulu Öndər mənalı həyatının, siyasi fəaliyyətinin məqsəd və məramını bu fikirləri ilə ifadə etmişdir: "Azərbaycan dünyaya Günəş kimi doğacaq." Ümummilli lider Heydər Əliyevin görmək istədiyi Azərbaycan artıq dünya birliyində öndə gedən flaqman kimi uğurları ilə hamının diqqətini cəlb edir. O, Azərbaycanı dünyada tanıtdı. Müstəqillik yolunda ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələrdən bəhs edərkən bu məqamı xüsusi qeyd etmişdir ki, beynəlxalq aləmdə özünü təsdiqləmək əsasdır. Bunun üçün ikitərəfli əməkdaşlıq, beynəlxalq təşkilatlar daxilində əlaqələrin qurulması, diaspor quruculuğu vacib məsələlərdir. Bu gün beynəlxalq münadibətlər sistemində böyük rola malik olan Azərbaycan məhz o illərdə yaradılan möhkəm təmələ söykənir. Ümummilli Lider elə bir Azərbaycan qurdu ki, o, daim irəliyə, yeni-yeni zəfərlərə doğru irəliləməli, dünyanın diqqətində olmalıdır. Bu isə öz növbəsində Lider amilinin rolunu önə çəkir. Müstəqilliyimizin bərpasının ilk illərinə nəzər saldıqda bunu aydın şəkildə görürük. Şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutan ünsürlərin rəhbərliyi dövrünün Azərbaycanı ilə 1993-cü ildən bu günədək böyük inkişaf yolu keçən, uğurları, zəfərləri ilə hər kəsi heyrətləndirən Azərbaycanı müqayisə etmək mümkünsüzdür.

Qeyd etdiyimiz kimi, bu zirvəyə yüksəlmək o qədər də asan olmamışdır. Bu uğurlar böyük qətiyyətin, səylərin nəticəsidir. Azərbaycana hansı sahədən baxsaq uğurlarımızla qürur duyuruq. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, belə güclü, qüdrətli Azərbaycanın vətəndaşıyıq.

Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri sırasında bu gün milyonların partiyasına çevrilən, ölkədə gedən bütün proseslərin mərkəzində dayanan Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. Partiyanın zamanın tələbi, xalqın istəyi ilə yaranması o illərin reallıqlarının aydın mənzərəsini yaradır. 91 nəfər ziyalının xalqın böyük əksəriyyətinin istəyini özündə ifadə edən "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti Azərbaycanın həyatında dönüş nöqtəsi oldu. Ümummilli Liderin həmin müraciətə cavabı sabaha olan ümidi artırdı. Belə ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Azərbaycanın düşdüyü vəziyyətdən xilasında belə bir partiyanın böyük rol oynacağına əminliyini ifadə etmişdi. Yarandığı gündən ümumxalq partiyasına çevrilən Yeni Azərbnaycan Partiyası hər zaman dövlətə, xalqa xidməti fəaliyyətinin əsası kimi qəbul edib və edir. Tutduğu yola sadiqlik xalqın sevgisini, etimadını daha da artırır. Bunu ölkəmizdə keçirilən seçki prosesləri bir daha təsdiqləyir. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Yeni Azərbaycan Partiyasının da həyatında yeni mərhələnin əsasını qoydu. YAP-a xalqın inamı sonsuzdur. Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir. YAP nəinki ölkəmizdə, regionda aparıcı siyasi təşkilatdır. Ümummilli Lider Heydər Əliyevin "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" çağırışı bütün dövrlərdə partiyanın fəaliyyətinin bələdçisinə çevrilib. Hazırda tarixi Zəfərimizin və suverenliyimizin bərpasının yaratdığı reallıqlar fonunda partiya yeni-yeni hədəflərin həyata keçirilməsinə verdiyi davamlı töhfələri ilə diqqətdədir.

2003-cü ildən başlanan Böyük Yolun davamı tarixi Zəfərimizlə dünyaya səs saldı. Ümummilli Lider Heydər Əliyevin xalqa 1 oktyabr 2003-cü il tarixli müraciəti Azərbaycanın bugünkü zəfərlərinin əsası oldu. Ulu Öndər həmin müraciətdə cənab İlham Əliyevə Özü qədər inandığını, Onun gələcəyinə böyük inam bəslədiyini bildirdi. Bu inamı da ifadə etdi ki, Onun axıra çatdıra bilmədiyi işləri, planları cənab İlham Əliyev başa çatdıracaq. Heydər Əliyevin xalqa həmin müraciətində əksini tapan çağırışlar, inam və etimad real həyatda öz təsdiqini tapıb. Hər zaman bu fikri böyük qürurla, fəxrlə qeyd edirik ki, dahi şəxsiyyətin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri məhz sonrakı dövrdə də Azərbaycanın tərəqqi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis, qətiyyətli Lider yetişdirməsidir.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu, məqsədyönlü daxili və xarici siyasət həm Azərbaycanın yüksəlişi və inkişafında, həm milli maraqların qorunmasında, həm də ölkəmizin dünya siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapır. Azərbaycan Ordusunun ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük İkinci Qarabağ müharibəsində torpaqlarımızı işğaldan azad etməsi, ərazi bütövlüyümüzün bərpa olunması zəngin dövlətçilik tariximizin ən qürurlu səhifəsidir. Ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss edən qalib ölkənin qalib Lideri İlham Əliyevə milyonların sevgisi şəksizdir.

Prezident İlham Əliyev Ulu Öndərin arzusunu reallığa çevirdi. Torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olundu. Bu gün Azərbaycan Bayrağı Şuşada, Xankəndidə, Xocalıda, Cəbrayılda, Füzulidə, azad edilmiş bütün torpaqlarımızda qürurla dalğalanır. Bu torpaqların sahibi bizik və burada əbədi olacağıq.

Heydər Əliyev yolu Azərbaycana möhtəşəm uğurlar qazandırır, müstəqillik tariximizin uğur səhifələri hər gün, hər an daha da zənginləşir. Azərbaycan qalib ölkənin qalib Lideri İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birgə səyləri sayəsində yeni-yeni hədəflərə doğru inamla addımlayır. Qarşıda bizi daha möhtəşəm uğurlar gözləyir.



*Faqət Şadlinskaya,*
*YAP Bərdə rayon təşkilatının sədri*



# Heydər Əliyev: müasir Azərbaycanın strateji yol xəritəsinin müəllifi

Müdrik dövlət xadimi, uzaqgörən siyasi lider, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü xalqımızın tərəfindən dərin hörmət və ehtiramla qeyd olunur. Onun zəngin siyasi irsi, həyata keçirdiyi genişmiqyaslı islahatlar və müəyyən etdiyi strateji inkişaf xətti bu gün də dövlətçiliyin möhkəmlənməsinə və davamlı tərəqqiyə xidmət edir.

Ulu Öndərin siyasi fəaliyyəti hələ Sovet dövründə geniş miqyas almışdır. 1969-cu ildən başlayaraq respublikanın rəhbərliyində təmsil olunan Heydər Əliyev qısa müddətdə iqtisadiyyatın müxtəlif sahələrində ciddi dönüş yaratmış, sənaye və kənd təsərrüfatının misilsiz inkişafına nail olmuşdur. Onun təşəbbüsü ilə yeni sənaye müəssisələri yaradılmış, mövcud istehsal sahələri modernləşdirilmiş və ümumi iqtisadi potensial əhəmiyyətli dərəcədə artırılmışdır. Bu siyasət nəticəsində Azərbaycan ittifaq miqyasında qabaqcıl mövqelərdən birini tutmuşdur.

Eyni zamanda, milli kadrların hazırlanması və irəli çəkilməsi istiqamətində həyata keçirilən siyasət xüsusi əhəmiyyət daşıyırdı. Gənclərin nüfuzlu ali məktəblərdə təhsil alması üçün geniş imkanlar yaradılmış, onların yüksək ixtisaslı mütəxəssis kimi formalaşmasına şərait təmin edilmişdir. Bu siyasət gələcəkdə dövlət idarəçiliyində və iqtisadiyyatın müxtəlif sahələrində peşəkar kadrların yetişməsinə mühüm zəmin yaratmışdır. Sosial sahədə aparılan işlər, şəhər və rayonlarda infrastrukturun inkişafı, mədəniyyət və təhsil sahələrinə göstərilən diqqət isə cəmiyyətin ümumi rifahının yüksəlməsinə mühüm təsir göstərmişdir.

1990-cı illərin əvvəllərində yaranmış ağır ictimai-siyasi vəziyyət dövlətçiliyi ciddi təhlükə qarşısında qoymuş, ölkədə xaos və idarəetmədə böhran vəziyyəti formalaşmışdır. Məhz belə mürəkkəb bir şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı tarixi dönüş nöqtəsinə çevrildi. Onun zəngin dövlətçilik təcrübəsi və qətiyyətli siyasəti nəticəsində ölkədaxili qarşıdurmaların qarşısı alındı, ictimai-siyasi sabitlik bərpa olundu və dövlət qurumlarının fəaliyyəti təmin edildi. Bu mərhələ dövlətin gələcək inkişafı üçün möhkəm təməl rolunu oynadı.

1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişinin imzalanması müharibənin genişlənməsinin qarşısını almaqla yanaşı, ölkədə sabitliyin möhkəmləndirilməsinə və sosial-iqtisadi dirçəlişə töhfə verdi. Həmin il sentyabrın 20-də imzalanan və "Əsrin müqaviləsi" kimi tarixə düşən neft sazişi isə dövlətin iqtisadi inkişaf strategiyasında mühüm mərhələnin başlanğıcı oldu. Dünyanın aparıcı enerji şirkətləri ilə əməkdaşlıq genişləndirildi, böyük həcmdə xarici investisiyalar cəlb olundu və enerji sektorunda yeni inkişaf mərhələsi başladı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər dövlətin təhlükəsizlik sisteminin möhkəmləndirilməsi və müdafiə qabiliyyətinin artırılması baxımından həlledici əhəmiyyət kəsb etmişdir. Bu sahədə mövcud olan pərakəndəlik aradan qaldırılmış, nizami və mərkəzləşdirilmiş silahlı qüvvələrin formalaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılmışdır. Vahid komandanlıq sisteminin yaradılması, idarəetmədə intizamın gücləndirilməsi və hərbi hissələr arasında koordinasiyanın təmin olunması ordunun çevik və effektiv fəaliyyət göstərməsinə imkan yaratmışdır. Eyni zamanda, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi, silah və texnika ilə təminatın yaxşılaşdırılması, hərbi qulluqçuların sosial vəziyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılmışdır.

İqtisadi sahədə həyata keçirilən islahatlar bazar iqtisadiyyatına keçidin təmin olunmasına yönəlmiş kompleks tədbirlərlə müşayiət olunurdu. Sahibkarlığın inkişafı üçün əlverişli mühit yaradılmış, hüquqi baza formalaşdırılmış və özəlləşdirmə proqramları vasitəsilə iqtisadiyyatın müxtəlif sahələrində struktur dəyişiklikləri həyata keçirildi. Regionların inkişafı, infrastrukturun yenilənməsi, yeni istehsal sahələrinin yaradılması və məşğulluğun artırılması iqtisadiyyatın dayanıqlı inkişafına mühüm töhfə verdi.

Ümummilli Lider Heydər Əliyevin sosial siyasəti dövlət idarəçiliyinin ən mühüm istiqamətlərindən biri kimi formalaşmış və əhalinin rifah halının yüksəldilməsinə yönəlmiş kompleks, sistemli və uzunmüddətli tədbirləri özündə birləşdirmişdir. Bu siyasətin əsas mahiyyəti sosial ədalətin təmin olunması, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması və cəmiyyətin bütün təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi idi. Heydər Əliyev sosial siyasəti yalnız iqtisadi inkişafın nəticəsi kimi deyil, həm də dövlətin birbaşa prioritet vəzifəsi kimi qiymətləndirir və bu istiqamətdə həyata keçirilən tədbirlərə xüsusi önəm verirdi.

Heydər Əliyevin sosial siyasətində məşğulluğun təmin olunması və əhalinin gəlirlərinin artırılması əsas prioritetlərdən biri idi. Yeni iş yerlərinin yaradılması, sahibkarlığın inkişafının təşviqi və iqtisadi fəallığın artırılması əhalinin sosial rifahına birbaşa təsir göstərirdi. Dövlət tərəfindən həyata keçirilən proqramlar vasitəsilə işsizliyin azaldılması istiqamətində mühüm nəticələr əldə olundu. Bununla yanaşı, əmək bazarının tənzimlənməsi və sosial müdafiə tədbirlərinin genişləndirilməsi sosial sabitliyin qorunmasına xidmət edirdi.

Təhsil sahəsi Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. Bu sahədə həyata keçirilən siyasət uzunmüddətli inkişaf məqsədlərinə xidmət etmişdir. Onun təşəbbüsü ilə təhsil sistemində köklü islahatlar aparılmış, məktəblərin maddi-texniki bazası gücləndirilmiş və müasir tədris metodlarının tətbiqi genişləndirilmişdir. Yeni təhsil müəssisələrinin tikilməsi, mövcud məktəblərin yenidən qurulması və tədris proqramlarının müasirləşdirilməsi təhsilin keyfiyyətinin yüksəlməsinə şərait yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi dövründə səhiyyə sahəsində həyata keçirilən siyasət əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və bu xidmətlərin hər kəs üçün əlçatanlığının təmin olunması baxımından mühüm nəticələr vermişdir. Bu istiqamətdə mütərəqqi islahatlar həyata keçirilmiş, səhiyyə sisteminin təşkilati və maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmişdir. Yeni xəstəxanaların, poliklinikaların və digər tibb müəssisələrinin tikilməsi ilə yanaşı, mövcud səhiyyə obyektləri əsaslı şəkildə yenidən qurulmuş, müasir tibbi avadanlıqlarla təchiz edilmişdir. Bu amillər regionlarda da tibbi xidmətlərin səviyyəsinin yüksəlməsinə və əhali üçün daha əlçatan olmasına şərait yaratmışdır. Eyni zamanda, profilaktik səhiyyənin inkişafına xüsusi diqqət yetirilmiş, xəstəliklərin qarşısının alınması məqsədilə maarifləndirmə tədbirləri gücləndirilmişdir. Müasir diaqnostika və müalicə üsullarının tətbiqi, tibb sahəsində çalışan kadrların peşəkarlığının artırılması və onların ixtisasının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər səhiyyə xidmətlərinin keyfiyyətinə müsbət təsir göstərmişdir.

Ümummilli Lider Heydər Əliyevin xarici siyasəti dövlətin beynəlxalq münasibətlər sistemində etibarlı mövqe qazanmasına zəmin yaratmışdır. Onun rəhbərliyi dövründə müxtəlif siyasi və iqtisadi sistemlərə malik dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri qurulmuş, beynəlxalq təşkilatlarla əlaqələr genişləndirilmiş, diplomatik fəaliyyət isə keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Bu siyasət nəticəsində Azərbaycan beynəlxalq hüquqa əsaslanan mövqeyi ilə etibarlı tərəfdaş kimi tanınmış, regionda sabitlik və əməkdaşlığın təşviqində fəal iştirak edən mühüm aktora çevrilmişdir.

Ulu Öndərin strateji inkişaf xətti Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Dövlətimizin başçısının reallaşdırdığı uğurlu siyasət nəticəsində dövlətin siyasi-iqtisadi və hərbi gücü əhəmiyyətli dərəcədə artmış, xüsusilə ordu quruculuğu sahəsində əldə olunan nailiyyətlər müdafiə qabiliyyətini yeni mərhələyə yüksəltmişdir. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanmış, ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində həlledici addımlar atılmışdır. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyi bərpa olunmuşdur. Bu mühüm uğurlar strateji kursun unikallığını təsdiqləməklə yanaşı, dövlətin beynəlxalq arenadakı mövqeyini daha da möhkəmləndirmişdir. Şanlı zəfərlər dövlətin gücünü, düzgün strateji kursun uğurunu və milli birliyin əhəmiyyətini bir daha nümayiş etdirmişdir. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə Böyük Qayıdış Proqramı uğurla icra olunur, genişmiqyaslı bərpa və quruculuq işləri aparılır, yeni şəhər və kəndlər salınır. Həmin proses sosial-iqtisadi potensialın daha da artmasına, regionların yenidən canlanmasına və davamlı inkişafın təmin olunmasına mühüm töhfə verir.

Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi və ideoloji irsi bu gün də dövlətçilik yolunda əsas istiqamətverici amil kimi çıxış edir. Onun müəyyən etdiyi strateji inkişaf kursu müasir dövrdə də yeni nailiyyətlərin əldə olunmasına zəmin yaradır və gələcək inkişafın möhkəm təminatı kimi öz aktuallığını qoruyur.



*Ramil Mirzəyev*
*YAP Xətai rayon təşkilatının sədri*

# Parlamentin növbəti uğuru...

## Milli Məclisə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verilib

Ölkəmizin xarici siyasətində parlament diplomatiyası mühüm yer tutur. Bu baxımdan, Milli Məclisin beynəlxalq fəaliyyəti xüsusi qeyd olunmalıdır. Məlumdur ki, Milli Məclis bir sıra beynəlxalq təşkilatlarda təmsil olunur, eləcə də bir çox ölkələrin parlamentləri ilə dostluq qrupları fəaliyyət göstərir. Əlbəttə, parlament çox mühüm hakimiyyət qoludur və onun işində beynəlxalq fəaliyyət xüsusi yer tutur. Parlamentarilər beynəlxalq miqyasda Azərbaycan həqiqətlərinin təbliği istiqamətində öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar.

Yeri gəlmişkən, Milli Məclisin sədri Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının toplantısında iştirak edib. Belə ki, mayın 7-də Monteneqroda təşkilatın üzv və tərəfdaş ölkələrinin parlament sədrlərinin 1-ci Sammiti keçirilib. Tədbirdə çıxış edən Sahibə Qafarova son 20 il ərzində Aralıq Dənizi Parlament Assambleyası parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, strateji əhəmiyyətə malik regionda dialoqun, qarşılıqlı anlaşmanın, sülh və sabitlik naminə ortaq məsuliyyətin təşviqi baxımından mühüm platforma kimi özünü təsdiqlədiyini vurğulayıb. Azərbaycanın coğrafi baxımdan Aralıq dənizi regionunun bir hissəsi olmasa da, Aralıq dənizi hövzəsi və Körfəz ölkələri ilə uzunmüddətli əlaqələrə və konstruktiv münasibətlərə malik olduğunu bildirən Milli Məclisin sədri deyib ki, ölkəmiz enerji marşrutlarının və təchizatının şaxələndirilməsi vasitəsilə regional və beynəlxalq enerji təhlükəsizliyinə töhfə verir. Bununla yanaşı, qeyd olunub ki, ölkəmiz Şərqlə Qərb arasında nəqliyyat bağlantılarının inkişafında, xüsusilə Orta Dəhliz çərçivəsində fəal rol oynayır. Bu səylər əməkdaşlığın gücləndirilməsinə və ortaq iqtisadi dayanıqlılığın təşviqinə töhfə verir.




Milli Məclisin sədri parlamentlərin beynəlxalq münasibətlərdə getdikcə daha mühüm rol oynadığını və parlament diplomatiyasının dialoqun təşviq edilməsi, şəffaflığın artırılması və dövlətlər arasında etimadın möhkəmləndirilməsi vasitəsilə ənənəvi diplomatik kanalları tamamladığını söyləyib. O, parlament diplomatiyasının etibarlı, inklüziv olmasının və beynəlxalq hüquqa, demokratik prinsiplərə, eləcə də qarşılıqlı anlaşmaya əsaslanmasının vacibliyini vurğulayıb. O deyib ki, parlament diplomatiyası fikir ayrılıqlarının olduğu hallarda belə konstruktiv əməkdaşlıq üçün platforma təqdim etməlidir. Azərbaycan Milli Məclisi bu yanaşmanı dəstəkləyir və çoxtərəfli parlament platformaları çərçivəsində əməkdaşlığa xüsusi önəm verir. Bu kontekstdə Assambleyanın həm Azərbaycanın, həm də Ermənistanın parlamentlərinə müşahidəçi statusu verməsi qərarını müsbət qiymətləndirən Sahibə Qafarova deyib ki, bu ölkələr, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, onilliklərlə davam edən münaqişədən sonra sülh şəraitində yaşamağı öyrənirlər. Bu addım sülh və normallaşma istiqamətində davam edən səylərə uyğun olaraq iki ölkə arasında dialoqun və etimad quruculuğunun inkişafına töhfə verə bilər. Parlamentlərimizin də iki xalq arasında etimadın qurulması istiqamətində çalışdığını söyləyən Sahibə Qafarova deyib ki, Aralıq Dənizi Parlament Assambleyası konstruktiv əməkdaşlıq üçün daha bir mühüm platformaya çevrilə bilər.

S.Qafarova Azərbaycanın beynəlxalq parlament fəaliyyətlərində fəal iştirak etdiyini xatırladıb.O, diqqətə çatdırıb ki, parlamentlər arasında əməkdaşlığın gücləndirilməsi sülhə, sabitliyə və davamlı inkişafa xidmət edəcək.

Qeyd edək ki, Milli Məclisə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verilib və bununla bağlı təşkilatın üzv və tərəfdaş olan parlamentlərin sədrlərinin mayın 7-də keçirilən 1-ci Sammiti çərçivəsində mərasim təşkil olunub. Spiker Sahibə Qafarova Milli Məclisə təşkilatda müşahidəçi statusunun verilməsi ilə bağlı qərara görə təşəkkür edib və onu yüksək qiymətləndirib. O deyib ki, Assambleyada iştirak üzv parlamentlərlə əlaqələrin daha da gücləndirilməsi və inkişaf etdirilməsi üçün yeni geniş imkanlar yaradır.

Bundan əlavə, Milli Məclisin sədri Sahibə Qafarovanın Monteneqroya işgüzar səfəri çərçivəsində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında Anlaşma Memorandumu imzalanıb.Memorandumu Milli Məclisin və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova və Aralıq Dənizi Parlament Assambleyasının prezidenti Culio Çentemero imzalayıblar.Qeyd olunub ki, bu sənəd tərəflər arasında daha geniş əməkdaşlıq əlaqələrinin qurulmasına xidmət edəcək.

*Nardar BAYRAMLI*

# Yeni investisiya gündəliyi

## Ölkəmizə 1,2 milyard dollar sərmayə yatıran İslam İnkişaf Bankı əməkdaşlığın yeni prioritetlərini açıqlayıb

Ölkəmizdə səfərdə olan İslam İnkişaf Bankı (İİB) Qrupunun nümayəndə heyətinin səfəri mühüm dövlət proqramlarının və özəl sektorda layihələrin maliyyələşdirilməsi üçün yeni fürsət kimi qiymətləndirilə bilər. Nümayəndə heyətinin rəhbəri Məhəmməd Əl-Casirin vurğuladığı kimi Azərbaycan ilə İİB arasında əməkdaşlığın inkişafı qürurverici̇dir və ayrılmış sərmayələr sosial-iqtisadi layihələrin maliyyələşdirilməsində mühüm töhfə verib. Maliyyələşdirmə çərçivəsində Azərbaycanın su və meliorasiya, nəqliyyat infrastrukturunun inkişafı və dəmir yolunun modernizasiyası təmin olunub. Eləcə də, özəl biznesə müxtəlif maliyyə təchizatı dəstəyi göstərilib. Bundan başqa, İslam Bankı Texniki Əməkdaşlıq Proqramı çərçivəsində bilik və təcrübə mübadiləsinin təşviqi, kənd təsərrüfatı, su idarəçiliyi və rəqəmsal transformasiya sahələrində texniki yardım və birgə təşəbbüslərin genişləndirilməsində yaxından iştirak etməkdədir. Ümumilikdə, İİB tərəfindən 20-yə yaxın dövlət və özəl layihənin icrasına 1,2 milyard dollardan çox vəsait ayrılıb.

Baş ofisi Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşən, nizamnamə kapitalı təxminən 10 milyard dollar olan İslam Bankı ölkəmizdə maliyyə sabitliyinin möhkəmlənməsində də öz töhfəsini əsirgəməyib, dövlət şirkətlərində maliyyə idarəçiliyinin gücləndirilməsi, dövlət borcunun idarə edilməsi üzrə ortamüddətli strategiya sənədinin hazırlanması, dövlət müəssisələrinin idarə edilməsində şəffaflığın və effektivliliyinin artırılması, eləcə də dövlət büdcəsinin fiskal qayda və orta müddətli fiskal çərçivə əsasında hazırlanaraq təqdim olunması məqsədilə hökumət tərəfindən həyata keçirilən islahatların dəstəklənməsinə vəsaitlər ayrılıb.

**"Yaşıl enerji", süni intellekt layihələrinə dəstək veriləcək**

Hazırda Azərbaycan ilə İİB arasında əməkdaşlığın yeni istiqamətləri və gələcək sərmayə gündəliyi müzakirə olunmaqdadır. İslam İnkişaf Bankının ölkəmizdə yeni sərmayə proqramı gerçəkləşdirmək niyyəti Prezident İlham Əliyevlə Məhəmməd Əl-Casirlə görüşdə də əsas müzakirə mövzularından biri olub. Bankın ölkəmizdə iqtisadiyyatın müxtəlif istiqamətlərində, enerji, o cümlədən "yaşıl enerji", kənd təsərrüfatı, su və irriqasiya sistemləri, infrastruktur və sosial sahələrdə həyata keçirdiyi layihələrin əhəmiyyəti vurğulanıb. Bankın sədri Ələt Azad İqtisadi Zonasına sərmayə yatırmaq barədə fikir mübadiləsi aparıldığını, eyni zamanda Qarabağa səfər edərək bölgənin investisiya mühitinin nəzərdən keçiriləcəyini xatırladıb.

İslam İnkişaf Bankı Qrupu Azərbaycana süni intellekt sahəsində maliyyə baxımından yardım göstərməyə də hazırdır. Bu barədə Bankın strukturlarından biri olan İnvestisiya və İxrac Kreditlərinin Sığortalanması üzrə İslam Korporasiyasının rəhbəri Yasser Alaki bildirib. Qeyd edib ki, süni intellekt yalnız Azərbaycan üçün deyil, bütövlükdə qlobal miqyasda əhəmiyyət daşıyır. Bu, hər bir islam və region ölkəsi üçün yeni sahə kimi önəm daşıyır və əməkdaşlıq blokunda yer alan Azərbaycan şirkətlərinin süni intellekt təşəbbüsləri korporasiya tərəfindən davamlı dəstəklənəcək. İslam Bankı Azərbaycan şirkətlərinə kredit sığortasından başlayaraq ticarətin maliyyələşdirilməsi və layihələrin maliyyələşdirilməsinə qədər geniş çeşidli xidmətlər də təklif edir. Bundan başqa, azərbaycanlı biznes icmasının öz məhsullarını beynəlxalq bazarlara, o cümlədən ərəb və körfəz regionuna çıxarmasına yardım göstərmək, həmçinin, Azərbaycan banklarının maliyyə və biznes əməliyyatlarının dəstəklənməsinə kömək etmək niyyətindədir.

**Azad ərazilərin bərpasına töhfə**

Yeri gəlmişkən, İslam İnkişaf Bankının nümayəndə heyətinin maliyyə naziri Sahil Babayevlə görüşündə işğaldan azad olunmuş ərazilərdə bu maliyyə institutunun imkanları nəzərdə keçirilib. Bu ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işlərinə marağını gizlətməyən Məhəmməd Əl-Casir "Qarabağ suvarma kanalının yenidən qurulması" layihəsində iştirakçılığı istisna etməyib. Xatırladaq ki, İslam bankı bölgədə ən mühüm infrastruktur layihələrindən olan Qız Qalası su anbarı və magistral suvarma kanalının tikintisində fəal yer almaqdadır. Qarabağ və ətraf regionlarda sosial-iqtisadi inkişaf və ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan layihələrdə Bankın donorluğu nəzərdə tutulur.

Ümumilikdə, cənab Əl-Casirin ölkəmizə səfəri Azərbaycanla Bank arasında sıx əməkdaşlıq əlaqələrinin davam etdirilməsi və yeni səhifənin açılması üçün yaxşı imkanlar yaradır. Qarşıda yeni hədəf və layihələrin icrası dayanır, bu Azərbaycanın təşəbbüskar olduğu regional layihələrin, o cümlədən Xəzəryanı ölkələrlə, türk və islam dövlətləri ilə güclü iqtisadi bağlantının yaradılması üçün müasir enerji-nəqliyyat qovşaqlarının maliyyələşdirilməsində İİB-in maliyyə təminatçısı olacağına əsaslı zəmin yaradır. Regional əməkdaşlıq proqramına əsasən. "yaşıl nəqliyyat" sahələrində, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində dəmir yolu sektorunda nəzərdə tutulan işlərin tamamlanması və Bakı şəhərində mobilliyin artırılmasında İİB ölkəmizə dəstək verəcək.

Qeyd edək ki, 2026-cı ilin 16-19 iyun tarixlərində Bakıda İslam İnkişaf Bankının 51-ci İllik Toplantısı keçiriləcək və bu mötəbər tədbirə İİB-lə yanaşı, aparıcı maliyyə institutlarının mümnayəndələri qatılacaq. Toplantı maliyyə təşviqləri sahəsində təkanverici rol oynamaqla, Azərbaycan və Bank arasında əməkdaşlığın yeni mərhələyə yüksəlməsi üçün əhəmiyyətli platforma olacaq. Eyni zamanda, İİB-lə əməkdaşlıq edən sərmayədarların Azərbaycanda investisiya planlarının icrasında fəaliyyətində imkanları artıracaq.

*E.CƏFƏRLİ*

# İnkişaf etmiş dövlətlər qrupunda

## Azərbaycan beynəlxalq kibertəhlükəsizlik reytinqində mövqeyini yaxşılaşdırıb

Azərbaycan kibertəhlükəsizlik sahəsində beynəlxalq mövqeyini əhəmiyyətli şəkildə gücləndirib. Ölkəmiz Milli Kibertəhlükəsizlik İndeksində (NCSI) 21 pillə irəliləyərək 52-ci yerdən 31-ci sıraya yüksəlib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin məlumatına görə, "e-Governance Academy"nin hazırladığı beynəlxalq indeks üzrə ölkəmizin göstəricisi 75,83 baldan 83,33 bala çatıb.

NCSI 100-dən çox ölkəni əhatə edir və kibertəhlükəsizlik sahəsindəki ən etibarlı beynəlxalq ölçmə alətlərindən biri hesab olunur. İndeks yalnız texniki imkanları deyil, eyni zamanda hüquqi çərçivəni, idarəetmə qabiliyyətini və milli hazırlıq səviyyəsini qiymətləndirir. 12 əsas sahə və 49 indikator üzrə aparılan qiymətləndirmə göstərir ki, Azərbaycan kibertəhlükələrə operativ müdaxilə, milli siyasətin formalaşdırılması, institusional imkanlar və beynəlxalq əməkdaşlıq istiqamətlərində nəzərəçarpan irəliləyiş əldə edib.

**İslahatlar ekosistemin gücləndirilməsinə səbəb olur**

Azərbaycanın qazandığı nailiyyətlərin əsas təməlində son illər ərzində kibertəhlükəsizlik sahəsində həyata keçirilən məqsədyönlü siyasət mühüm yer tutur. Bir neçə il əvvəl ölkəmizdə Kibertəhlükəsizlik Mərkəzinin yaradılması və fəaliyyətə başlaması, davamlı olaraq müxtəlif sahələrin təmsilçiləri üçün kibertəhlükəsizlik təlimlərinin keçirilməsi öz mühüm təsirini göstərib. "Rəqəmsal hökumət"ə keçidin təmin edilməsi və "Hökumət buludu"nun yaradılması istiqamətində işlər dayanmadan davam etdirilir. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiya" sənədinin qəbul edilməsi və müvafiq qurumlar qarşısında qoyulmuş tapşırıqların icra olunması informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin təkmilləşdirilməsi və informasiya təhlükəsizliyinin texnoloji infrastruktur komponentlərinin yaradılmasına, bir sözlə kibertəhlükəsizlik sahəsində milli ekosistemin formalaşdırılmasına imkan yaradıb. Bu amillər ölkəmizin beynəlxalq reytingdə mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasında mühüm rol oynayıb.

**Kibertəhlükəsizliklə bağlı müasir çağırışlar...**

Azərbaycanın yüksək qlobal indeksdə uğur qazanması kibertəhlükəsizlik sahəsində arxayınlaşdırmamalıdır. Mövcud kiberməkanlar və situasiyalar respublikamızı bütün dövlətlər kimi kibertəhlükəsizlik sahəsində yeni alətlərdən istifadə etmək, qlobal çağırışlara çevik və operativ addımlar atmaq məsuliyyətini artırır. Ölkəmizdə texnoloji inkişaf, rəqəmsallaşma, süni intellektin tətbiq edilməsi gündəlik həyatımızda yeni riskləri də meydana çıxarır. Dövlət qurumları,özəl sektor və cəmiyyətin bütün digər seqmentlərində rəqəmsallaşma dayanmadan irəliləyir. Əlxüsus da sosial platformalara elektron ticarətin ənənəvi ticarəti sıradan çıxararaq ön plana keçməsi və maliyyə sövdələşmələrinin bu platforma üzərindən aparılması kibertəhlükələri də artırır. Azərbaycanın informasiya məkanına, o cümlədən onun tərkib hissələri olan dövlət, özəl və qeyri-hökumət qurumlarının, fiziki şəxslərin sahib olduğu informasiya ehtiyatlarına və infrastrukturlarına, maddi və qeyri-maddi obyektlərə qarşı texnoloji cəhətdən çoxşaxəli hücumların genişləndiyini müşahidə edirik.

Bütün bunlar hökuməti milli təhlükəsizliyə olan təhdidləri müəyyən etmək, bu təhdidlərin istifadə edə biləcəyi zəifliklər, boşluqların və təhdid nəticəsində yarana bilən fəsadları aradan qaldırmaq üçün məsuliyyətini artırır və fəaliyyətini daha da gücləndirməyi labüd edir. Kibercinayətkarlığın törədilmə üsul və vasitələrinin sürətli diversifikasiyası, o cümlədən kriptovalyutaların geniş vüsət alması və müxtəlif cinayətkar məqsədlərlə istifadə olunması, kiberhücum vektorlarının ildən-ilə daha da çoxalması, o cümlədən sosial mediya kontekstində sürətlə artan kibertəhdidlər mübarizədə daha mükəmməl texnoloji həllərin tətbiqini zəruri edir. Ona görə də, kibertəhlükəsizlik riskləri reyestrinin formalaşdırılması, təhdidlərin qarşısını ala biləcək müasir texnologiyaların tətbiqi, fərdi məlumatların mühafizəsinin gücləndirilməsi, İKT- xidmət subyektlərində fəaliyyətin və "ağıllı" sistemlərin təhlükəsizliyinin təkmilləşdirilməsi, kiberkriminalistika sahəsində fəaliyyətin gücləndirilməsi olduqca vacibdir. Çevik və koordinasiya olunmuş fəaliyyət komandasına əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirləri həyata keçirən qurumlarla yanaşı, elmi-texniki və təhsil, informasiya-təhlil, kommunikasiya, iqtisadi və digər sahələr üzrə əlaqələndirilmiş birgə fəaliyyətin gücləndirilməsi sayəsində daha güclü və geniş təhlükəsizlik şəbəkəsi formalaşdırmaq mümkündür.




**Reytinq ölkəmizə hansı üstünlüklər qazandırır?**

Azərbaycan qlobal rəqəmsal ailənin üzvü kimi öz məsuliyyətini dərk edərək beynəlxalq kiberqurumlarla sıx əməkdaşlıq çərçivəsində informasiya məkanının müasir təhdidlərdən qorunmasını milli təhlükəsizliyin əsas istiqamətlərindən biri kimi diqqətdə saxlayır. Kibertəhlükəsizliyin, rəqəmsal iqtisadiyyat və elektron idarəetmənin gücləndirilməsinə yönələn strateji qərarlar ölkəmizin beynəlxalq arenada rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə artırıb. Həmçinin kibertəhlükəsizlik sahəsindəki dövlət investisiyaları, mütəxəssis hazırlığına ayrılan diqqət və kritik informasiya infrastrukturunun qorunmasına yönələn kompleks tədbirlər ölkənin bu sahədəki mövqeyini köklü şəkildə dəyişib.

Kibertəhlükəsizlik məsələlərinin qlobal xarakterini nəzərə alaraq, beynəlxalq səviyyədə əməkdaşlıq günün ayrılmaz tələbidir. Ölkədaxili və beynəlxalq əməkdaşlıq informasiya təhlükəsizliyinin, həmçinin kibertəhlükəsizliyin təmin edilməsində ciddi zəmin yaradır. Bu baxımdan ölkəmizin reytinqini yaxşılaşdırması qlobal ailənin üzvü kimi kibertəhdidlərə qarşı dünya koalisiyası ilə daha sıx əməkdaşlığın şərtləndirir. İnkişaf etmiş dövlətlərlə bir sırada olmaq həmin ölkələrin müvafiq strategiyalarını yaxından öyrənməyə, mübadilə etməyə və birgə səylərin əlaqələndirilməsinə əlverişli imkanlar yaradır. Kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin olunmasında və sistemli tədbirlərin müəyyənləşdirilməsində İTU platformasının mühüm üstünlükləri var.

Azərbaycan kibertəhlükəsizlik və informasiya təminatı üzrə tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsaslanaraq bu sahədə qlobal icma ilə birlikdə əsas məqsədlərini, prinsiplərini və prioritet vəzifələrini daha yaxımdan əlaqələndirə, beynəlxalq anti-kiber şəbəkəyə qoşulmaqla informasiya təhlükəsizliyi zəncirlərini və kibertəhlükəsizlik toru arxitekturasını möhkəmləndirə bilər. Bu isə xaricdən yönələn kiberhücumların, fişinq təhdidlərin insanlara, cəmiyyətə və dövlətə qarşı zərərlərini əhəmiyyətli dərəcədə neytrallaşdırmış olacaq. Respublikamız qlobal səviyyədə öz informasiya təhlükəsizliyi ekosistemini möhkəmləndirməklə özəl və dövlət strukturlarının bütün seqmentlərində milli maraqların daha yüksək və təkmil səviyyədə qorunmasına nail ola bilər.

*E.CƏFƏRLİ*

# Büdcə gəlirləri xərcləri üstələyib

## 4 ayda dövlət büdcəsində 2,6 milyard manatdan çox profisit yaranıb

2026-cı ilin yanvar-aprel aylarında dövlət büdcəsinin icrasında müsbət meyillər davam edib. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 376,6 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Büdcənin gəlirləri 13 milyard 564 milyon manat təşkil edib ki, bu da proqnozu 99 milyon manat və ya 0.7 faiz üstələyib.

Qeyd edək ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat, xərcləri isə 41 milyard 703,6 milyon manat məbləğində təsdiq edilib. İcmal büdcənin gəlirləri isə 44 milyard 969,4 milyon manat, xərcləri 48 milyard 839,3 milyon manat müəyyən olunub. Büdcə zərfində müdafiə və milli təhlükəsizlik, hüquq-mühafizə xərclər üçün 8,7 milyard manat həcmində nəzərdə tutulub.

Qarabağ və Şərqi Zəngəzurun bərpasına 3,5 milyard manat vəsaitin ayrılması planlaşdırılıb. Əhalinin sosial rifahı üçün büdcədən 2026-cı ildə 17,1 milyard xərclənməsi təsdiqlənib.

### İcmal büdcənin gəlirləri 16 milyard 2 milyon manatı ötüb

Dövlət büdcəsinin gəlirlərində əsas fiskal mənbə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti olub. Bu qurumun xətti ilə daxilolmalar 6 milyard 862,5 milyon manat təşkil edərək proqnozdan 129 milyon manat və ya 1,9 faiz, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 2 milyard 032,7 milyon manat təşkil edərək proqnozdan 6,7 milyon manat və ya 0,3 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 18,5 milyon manat təşkil edərək proqnozdan 2,4 milyon manat və ya 14,8 faiz, sair daxilolmalar 141,2 milyon manat təşkil edərək proqnozdan 38,3 milyon manat və ya 37,3 faiz çox, Dövlət Neft Fondundan transfer isə 4 milyard 280 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 229,1 milyon manat təşkil edərək proqnoza qarşı 74,7 faiz icra olunub.

Yanvar-aprel ayları ərzində dövlət büdcəsinin xərcləri 10 milyard 933,4 milyon manat proqnoza qarşı 10 531,1 milyon manat məbləğində icra edilib ki, bu da 96,3 faiz təşkil edir. Beləliklə, dövlət büdcəsində 2,6 milyard manatdan çox profisit (büdcə artıqlığı) yaranıb.

Bu müddət ərzində icmal büdcənin gəlirləri 16 milyard 2 milyon manat, xərcləri isə 12 milyard 43,4 milyon manat məbləğində icra edilib. Nəticədə icmal büdcədə 4 milyard manat profisit yaranıb.




### Fiziki və hüquqi şəxslərə 96 milyon manat vəsait geri qaytarılıb

2026-cı ilin yanvar-aprel ayları ərzində dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə ümumilikdə 96 milyon 494,7 min manat məbləğində vəsait geri qaytarılıb. Həmin vəsaitlər fiziki şəxslərin pərakəndə ticarət və ictimai iaşə sahəsində aldıqları mallara, mədəniyyət (teatr, kino, muzey, konsert), tibbi xidmətlərə, o cümlədən işğaldan azad edilmiş ərazilərdəki mehmanxana xidmətlərinə, habelə əcnəbilər tərəfindən ölkə ərazisində istehsal və kommersiya məqsədi daşımayan malların alınmasına ödənilmiş ƏDV-nin qaytarılmasına aiddir.

Bununla yanaşı, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsi, həmçinin artıq ödənilmiş digər vergilər, dövlət rüsumu, faizlər və maliyyə sanksiyaları da geri qaytarılıb.

### Qeyri-neft sektorundan vergi daxilolmaları artıb

2026-cı ilin yanvar-aprel ayları ərzində Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə daxil olan vəsaiti həcmi fiskal yığımlarda ilk yerdə dayanır. Vergi orqanları büdcəyə proqnozdan 129 milyon manat çox vəsait köçürüb. Yığımlarda qeyri-neft-qaz sektorundan daxilolmaların həcmi daha çox artıb. Belə ki, qeyri-neft yığımları 5 milyard 360,3 milyon manatdan çox təşkil edib və büdcəyə proqnozdan əlavə 108,3 milyon manat vəsait ödənilib. 2025-ci ilin müvafiq dövrünə nisbətən bu sektordan daxilolmalar 412,3 milyon manat və ya 8,3 faiz artıb.




Ötən dörd ay ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2 milyard 210,6 milyon manatdan çox olub, proqnozdan əlavə 117,9 mln. manatdan çox vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 1 milyard 485,5 milyon manata yaxın təşkil edib. İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 78,5 milyon manata yaxın olub, proqnozdan əlavə 3,3 mln. manata yaxın vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 61,3 milyon manatı ötüb.

İcbari tibbi sığorta haqları üzrə daxilolmaların həcmi 339,8 milyon manatdan çox olub, proqnozdan əlavə 9,9 mln. manata yaxın vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 229,1 milyon manatdan çox olub.

Vergi daxilolmalarının artımında biznesin və sahibkarlıq subyektlərinin sayının artımı da mühüm rol oynayıb. Mayın 1-ə olan dövrə qədər ölkə üzrə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 2,1 faiz artaraq 877.368, aktiv ƏDV ödəyicilərinin sayı isə 3,5 faiz artaraq 60.431 təşkil edib. Həmin tarixə aktiv təsərrüfat subyektlərinin sayı 3,3 faiz artıb və 240.528 olub.

***E.CƏFƏRLİ***

# Valyuta rejimi təkmilləşdirilib

## Milli və xarici valyutada əməliyyatların aparılması qaydalarında dəyişiklik edilib

Mərkəzi Bankın (MB) İdarə Heyətinin sədrinin imzaladığı yeni qərara əsasən, "Rezidentlərin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"nda dəyişiklik edilib. Belə ki, yeni qərarla Azərbaycana idxal olunan malların və xidmətlərin ödənilməsi üzrə rezidentlər və qeyri-rezidentlər tərəfindən köçürülən, o cümlədən qabaqcadan ödənilən vəsaitlər (avans) üzrə köçürmələrin icrası üçün Nazirlər Kabinetinin xüsusi tapşırığı (qərarı, sərəncamı, müraciəti, dərkənarı) olduqda köçürmə əməliyyatları idxal müqaviləsi, gömrük bəyannaməsi və hər hansı digər sənəd tələb olunmadan icra ediləcək. Bu halda xüsusi tapşırığı təsdiq edən sənədin surəti bankda saxlanılacaq.

Həmçinin, yeni əlavə olunan maddə ilə avans ödənişi müdafiə təyinatlı malların (döyüş təyinatlı hərbi texnika, hərbi silah, döyüş sursatı, onların layihələndirilməsi və istehsalı üçün avadanlıq, dəstləşdirici və ehtiyat hissələr, həmçinin elmi-texniki məlumat, xammal, material və texnologiyalar) Azərbaycana idxalı, habelə bu cür mallarla əlaqədar işlərin görülməsi və ya xidmətlərin göstərilməsi üçün nəzərdə tutulduqda bu barədə Müdafiə Sənayesi Nazirliyinin məktubu banka təqdim edilə bilər. Bu halda məktubun surəti bankda saxlanılacaq.

### Valyutanın ölkədən kənara çıxarılmasına qarşı nəzarət artırılıb

Valyuta rejimi ilə bağlı qaydalar xarici valyutanın Azərbaycana gətirilməsi və ölkədən çıxarılmasının çərçivəsini müəyyən edir və gömrük prosedurlarına əməletməni tənzimləyir. Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər müəyyən edilmiş limitlər üzrə xarici valyutanı gömrük orqanında şifahi formada bəyan etməklə yanaşı, müvəkkil banklar və poçt rabitəsinin milli operatoru vasitəsilə köçürmə yolu ilə həyata keçirmək hüququna malikdirlər. Bu qaydaların tətbiqi valyuta nəzarətini təmin etmək məqsədi daşıyır və bir sıra hallarda biznes iştirakçılarının fürsətçilliyinin qarşısını almağa xidmət edir. Belə ki, "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"na əsasən, ixrac əməliyyatları zamanı əldə olunmuş vəsait 180 gün ərzində ölkəyə gətirilməlidir. Bəzi ixracatçılar ixrac etdikləri mal və xidmətlərin real ixrac dəyərinə uyğun həmin vəsaiti geri qaytarmır, müxtəlif sahələrə yönəldərək faktiki olaraq öz mənfəətləri naminə Azərbaycanın pul siyasəti hədəflərinə, valyuta tənzimlənməsi qaydalarına qarşı çıxırlar.

Azərbaycanın pul siyasəti hədəflərində daha çox valyutanın ölkədə qalması başlıca yer tutur, hökumətin ixracla məşğul olan biznesə dəstəyi, onlara təşviqedici alətlərlə güzəştləri, digər motivasiyaların da əsas məqsədi onların ixrac etdikləri malların dövriyyəsini artırmaq, ölkəyə daha çox valyuta gəlməsini təmin etməkdir. Bu proses müvafiq qaydalar əsasında tənzimlənir. Xarici ölkələrə pul köçürmələri Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında qaydalara əsaslanır. Həmin qaydalar "Valyuta tənzimi haqqında" Qanununa əsaslanır və müvafiq olaraq rezident və qeyri-rezidentlərin Azərbaycanın kredit təşkilatları vasitəsilə aparılan valyuta əməliyyatlarının rejimini tənzimləyir. Qaydalara əsasən, malların, işlərin və xidmətlərin idxalı və ixracı üzrə əməliyyatların müddəti, yəni 180 gün müəyyən olunub. Həmin əməliyyatların hər birinin müqavilə, kontrakt və ya əqd üzrə mənşəyini təsdiq edən sənədlərin hər biri Azərbaycanın gömrük orqanlarının elektron sistemində, eləcə də bank sisteminin reyestrində öz əksini tapır. Eləcə də qeyd edilən əməliyyatlar üzrə ölkədən çıxarılmış valyutanın dəyəri müvafiq qurumların e-sistemində görünür, habelə həmin malın satışından əldə edilmiş valyutanın dəyər və miqdarı ölkənin xarici ticarət balansından aydın olur.

Beləliklə, mövcud çərçivəyə əsasən, sahibkarlar ixrac etdikləri malların satışından qazandıqları valyutanı 180 gün müddətinə geri qaytarılmasını təmin etmirlərsə, həmin fiziki və hüquqi şəxslər barədə müəyyən şübhələr meydana çıxır, bu, kapitalın ölkədən çıxarılması anlamına gəlir.

Ümumilikdə, Mərkəzi Bankın uzaqgörən və çevik siyasəti sayəsində monetar tənzimləmə funksiyaları son illərdə gücləndirilib. Qeyri-rezidentlərin apardığı pul əməliyyatlarının mənşəyi ilə bağlı bir sıra yeni tədbirlər həyata keçirilib ki, bu siyasət "çirkli pulların" yuyulmasının qarşısının alınmasında hökumətin qətiyyətli iradəsini göstərir.



### Sənədləşmə sadələşdirilib, avans ödənişi imkanı yaradılıb

MB tərəfindən "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"nda müvafiq dəyişikliklər edilməsi sayəsində fiziki şəxslərin məqsədli köçürmələrinə nəzarət artırılıb. Fiziki şəxslərin şəxsi məqsədlər üçün ölkə xaricinə köçürdükləri məbləğlər üzrə gündəlik limitlər ləğv edilib, köçürmə formasından (hesab açmadan və yaxud hesab vasitəsilə) asılı olmayaraq 20.000 ABŞ dolları ekvivalentinə qədər aylıq limit müəyyən edilib, həmçinin fiziki şəxslərin təkcə özünün deyil, digər şəxslərin də xaricə səfərləri ilə bağlı nəqliyyat və otel (gecələmə) xərclərini ödəmək imkanı nəzərdə tutulub.

Eyni zamanda, bazar iştirakçılarının rəy və təklifləri nəzərə alınmaqla, idxal olunan mallar üzrə köçürmələr zamanı sənədləşmə prosesi sadələşdirilib, ticarət vasitəçiliyi əməliyyatlarında isə vasitəçi tərəfindən əvvəlcədən köçürmə qaydasında satıcıya 180 günə qədər avans ödənişinin həyata keçirilməsi imkanı müəyyən edilib. Bu zaman vasitəçi müvəkkilə banka ödənişi təmin edən geri götürülməyən akkreditiv və yaxud bank zəmanəti təqdim etməlidir.

Bununla yanaşı, beynəlxalq təcrübə də nəzərə alınmaqla ölkə ərazisində emissiya olunmuş ödəniş kartları vasitəsilə rezident fiziki şəxslərin ölkə hüdudlarından kənarda təqvim ayı ərzində 10.000 ABŞ dolları ekvivalentinə qədər məbləğdə pul vəsaitini nağdlaşdırması müəyyən edilib. Bu mexanizmlər valyuta rejiminin təkmilləşdirilməsini təmin etməklə, biznes iştirakçıları üçün daha optimal fəaliyyəti təşviq etməkdədir.

***E.CƏFƏRLİ***

# Fransanın Cənubi Qafqaz "sevdası"

## Ermənistan hansı yolu seçəcək: yenidən asılılığı, yoxsa müstəqil dövlət olmağı?

Ermənistanın 30 il davam etmiş işğal siyasəti bölgənin iqtisadi potensialının tam açılmasına mane olmaqla yanaşı, fərqli xarici maraqların regiona müdaxilə cəhdlərinə də şərait yaratmışdı. Məhz Ermənistanın əli ilə Cənubi Qafqaza uzanan "əllər" uzun illər konfrantasiyaların davam etməsində, normal münasibətlərin olmamasında maraqlı idilər. Halbuki, Cənubi Qafqazın geosiyasi mövqeyi, enerji resursları, tranzit imkanları və Avropa ilə Asiyanı birləşdirən strateji xətt üzərində yerləşməsi onu beynəlxalq siyasətin mühüm aktorlarından birinə çevirə bilərdi. Bu isə adıçəkilən qrupların və ya mərkəzlərin, hətta dövlətlərin planları ilə uzlaşmırdı.

2020-ci ildə Azərbaycanın yaratdığı yeni siyasi və hərbi reallıqlar bölgədə tamamilə fərqli mənzərə formalaşdırdı - regionda yeni əməkdaşlıq modeli yarandı. Bu model qarşıdurma deyil, kommunikasiyaların açılması, iqtisadi inteqrasiya və uzunmüddətli sülh konsepsiyasına əsaslanır.

Təəssüfləndirici haldır ki, bölgədə yaranan yeni reallıqlar yenə də bəzi dairələrin maraqları ilə üst-üstə düşmür. Uzun illər Cənubi Qafqazda idarə olunan gərginlikdən siyasi və iqtisadi üstünlüklər əldə edən bu qüvvələr yeni mərhələdə təsir imkanlarını itirmək istəmirlər. Xüsusilə Fransa son dövrlərdə Ermənistan üzərindən regionda yenidən mövqe qazanmağa çalışır. Parisin İrəvana münasibətdə nümayiş etdirdiyi "xüsusi diqqət" ilk baxışda humanitar və siyasi dəstək kimi təqdim olunsa da, proseslərin dərinliyinə baxdıqda burada daha geniş geosiyasi hesablamaların olduğu görünür.

### Bölgəyə dönüş "planı"

Yaranan yeni situasiyada özünü Avropanın strateji təməli sayan Paris yeni oyun qurmağa çalışır. Məhz bu baxımdan Fransanın son illərdə Ermənistanla münasibətləri sürətlə dərinləşdirməsi təsadüfi görünmür. Paris heç vaxt siyasi sərmayəsini nəticəsiz layihələrə yatırmır. Bu səbəbdən də Fransanın "erməni sevgisi" emosional bağlılıqdan daha çox geosiyasi hesablamalara söykənir. Makron hakimiyyəti müəyyən mənada ermənipərəst təsirdə olan Qərb dairələrinin Cənubi Qafqaz strategiyasını həyata keçirməyə çalışır. Fransa bölgədə siyasi təsir imkanlarını genişləndirəcəyi təqdirdə Avropa İttifaqı daxilində də açıq liderlik mövqeyinə yüksələcəyini düşünür. Ermənistan isə bu siyasətin əsas dayağı kimi nəzərdən keçirilir. Makronun müxtəlif platformalarda Ermənistanla "strateji tərəfdaşlıq" mesajları verməsi də təsadüfi deyil. Məqsəd İrəvanı öz təsir dairəsində saxlamaq və onun vasitəsilə region proseslərinə müdaxilə imkanları əldə etməkdir.

Qərbin siyasəti heç vaxt yalnız bir məqsədə xidmət etmir. Bir layihə üzərindən bir neçə istiqamətdə mənfəət qazanmaq ənənəsi uzun illərdir tətbiq olunur. Ermənistan məsələsində də oxşar yanaşma hiss edilir: Fransa bir tərəfdən özünü Ermənistanın təhlükəsizlik təminatçısı kimi təqdim edir, digər tərəfdən isə regionda artan Azərbaycan-Türkiyə birliyinin təsirinə qarşı balans formalaşdırmağa çalışır. Eyni zamanda enerji və tranzit layihələrində pay sahibi olmaq niyyəti də bu siyasətin əsas komponentlərindən biridir.

### Fransanın manipulyasiya siyasəti

Bir sıra siyasi şərhçilərin düşüncəsinə görə, Makron administrasiyası və ermənipərəst dairələrin Ermənistana yönəlik fəallığı təkcə siyasi yaxınlaşma ilə məhdudlaşmır. Bu prosesin arxasında regionda formalaşan sülh perspektivinə təsir göstərmək niyyəti də dayanır. Çünki uzunmüddətli sabitlik yaranacağı təqdirdə Cənubi Qafqazda tamamilə yeni siyasi və iqtisadi mühit formalaşacaq. Azərbaycanın təşəbbüsü ilə yaranan reallıqlar Ermənistan üçün də yeni imkanlar açır. İrəvan regional layihələrə qoşulmaqla həm iqtisadi dirçəliş əldə edə, həm də real dövlətə çevrilə bilər. Məhz bu perspektiv bəzi dairələri narahat edir. Uzun illər Ermənistanı siyasi təsir vasitəsi kimi istifadə edən qüvvələr güclü və müstəqil Ermənistan modelində maraqlı deyillər. Onlar üçün daha uyğun variant xarici dəstəkdən asılı, təhlükəsizlik qorxusu ilə idarə olunan və qərarlarını müstəqil şəkildə verə bilməyən Ermənistandır. Belə bir vəziyyətdə həm maliyyə yardımları adı altında siyasi təsir göstərmək, həm də hərbi və texniki asılılıq yaratmaq daha asan olur.

Digər tərəfdən, müxtəlif beynəlxalq platformalarda Azərbaycana qarşı aparılan kampaniyalar da prosesin tərkib hissəsi kimi görünür: Okamponun ifşa olunan planları, Avropa Parlamentinin qərəzli və qeyri-hüquqi mövqeyi, Aİ tərəfindən seçkiqabağı Ermənistana göndərilməsi nəzərdə tutulan missiya birmənalı şəkildə bölgədə yaranacaq sabitliyə zərbə vurmaq üçün alətlərdir. Birtərəfli bəyanatlar və qərəzli hesabatlar bölgədə etimad mühitini zəiflətməyə hesablanıb.



### Gizli hesablamalar - Paşinyanı devirmək bahasına da olsa...

Siyasi müşahidəçilərin fikrincə, Fransa prezidentinin Avropa Siyasi Birliyinin Zirvə toplantısından sonra Ermənistanda qalması da təsadüfi addım deyildi. Bu addım Parisin İrəvana verdiyi siyasi mesaj olmaqla yanaşı, regionla bağlı da "boş dayanmayacağını" nümayiş etdirməsi idi. Fransa göstərməyə çalışırdı ki, Cənubi Qafqaz proseslərində iştirak etmək niyyətindən geri çəkilməyəcək. Bu gün erməni lobbisinin təsirində olan bəzi beynəlxalq təşkilatlar və siyasi mərkəzlər regionda davamlı sülhün formalaşmasını öz maraqları baxımından riskli hesab edirlər. Çünki sülh əldə olunduğu halda uzun illər istifadə edilən "münaqişə kartı" aktuallığını itirəcək. Bu isə müəyyən siyasi dairələrin həm təsir imkanlarını, həm də maliyyə və siyasi dividend mənbələrini zəiflədəcək.

Bu mənada seçki prosesi onlar üçün bir fürsətdir. Bəzi beynəlxalq aktorlar hətta Ermənistan hakimiyyətini belə öz maraqları müstəvisində sabotaja məruz qoyurlar. Bu isə göstərir ki, Ermənistanla bağlı hesablamalar geosiyasi struktura malikdir. Başqa sözlə, onlar Paşinyana qarşı belə oyunlar qura bilərlər - təki sülhə mane olsunlar.

### Ermənistanın qarşısındakı tarixi seçim

Ermənistan üçün çıxış yolu əslində kifayət qədər aydındır - regional sülh və əməkdaşlıq kursunu seçmək. Qarşıdakı siyasi proseslər, xüsusilə parlament seçkilərindən sonrakı mərhələ bu baxımdan həlledici ola bilər. Sülh sazişinin imzalanması Ermənistan üçün yalnız təhlükəsizlik məsələsi deyil, həm də iqtisadi və siyasi gələcək deməkdir. Kommunikasiyaların açılması, regional layihələrə qoşulmaq və qonşularla münasibətlərin normallaşması Ermənistan iqtisadiyyatına ciddi nəfəs verə bilər. Əgər İrəvan yenidən xarici siyasi mərkəzlərin təsiri altında hərəkət etməyə üstünlük versə, ölkə əvvəlki kimi forpost funksiyasını davam etdirəcək. Bu isə Ermənistanın uzunmüddətli perspektivdə həm iqtisadi, həm də siyasi baxımdan asılı vəziyyətdə qalması deməkdir. Xaricdən verilən vədlər isə heç vaxt real inkişaf modelini əvəz etmir.

Əksinə, Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşması Ermənistan üçün yeni bazarlar, tranzit imkanları və investisiya perspektivləri aça bilər. Region dövlətləri arasında qarşılıqlı asılılıq artdıqca müharibə riski azalır və iqtisadi maraqlar ön plana keçir. Bu isə Ermənistanın ilk dəfə olaraq həqiqətən müstəqil və dayanıqlı dövlət modelinə yaxınlaşması üçün şans yaradır.

# Atəşkəs niyə pozulur?

## Tərəflər bir-birini ittiham edir

Rusiyanın Müdafiə Nazirliyi Prezident Vladimir Putinin Qələbə Günü münasibətilə mayın 8-ni və 9-unu Ukrayna ilə atəşkəs barədə əmr verdiyini açıqlayıb. Bu addım Ukrayna ilə koordinasiya edilmədən atılıb. Bununla yanaşı, bayram tədbiri hücumlarla pozulacağı təqdirdə, Kiyevin mərkəzinə raket zərbəsinin endiriləcəyi diqqətə çatdırılıb. Ondan əvvəl isə Ukrayna Prezidenti Volodimir Zelenski mayın 5-dən 6-na keçən gecə 00:00-dan atəşkəs elan edildiyini bildirmişdi.

### Budanov: Kiyev atəşkəs istəyir

Ukrayna Prezidentinin Aparatının rəhbəri Kirill Budanovun sözlərinə görə, Kiyev insanların həyatını qorumaq və təhlükəsizliyi bərpa etmək üçün Rusiya ilə atəşkəs istəyir. Əgər atəşkəs qarşılıqlı olarsa, uzadıla bilər. O deyib ki, rəsmi Kiyevin təklif etdiyi atəşkəs Ukraynanın sülhün bərqərar olmasına dair səmimi istəyindən xəbər verir: "Konkret bir tarixlə bağlı deyil, həyatların qorunması və təhlükəsizlik naminə. Əgər Prezidentin elan etdiyi atəşkəs qarşılıqlı olarsa, biz onu davam etdirəcəyik və bu, kiçik olsa belə, bizə davamlı sülhün bərqərar olmasına ümid verəcək". K.Budanovun fikrincə, Ukrayna Prezidenti Zelenski bu addımla bütün dünyaya müharibəyə son qoymağa sadiqliyini sübut edib. Növbəti addımı isə Rusiya atmalıdır. "Rəsmi Moskva insan həyatının onun üçün hər hansı bir dəyərinin olduğunu sübut etməyə hazırdırmı? Biz Moskvanın hər bir addımını diqqətlə izləyirik və hadisələrin istənilən inkişafına hazırıq"-deyə, o söyləyib.

Lakin Rusiya Kiyevin atəşkəs təşəbbüsünün əksinə hərəkət edib və Ukrayna şəhərlərinə hücumları davam etdirib. Belə ki, məhz Zelenskinin elan etdiyi atəşkəs müddətində Rusiya qüvvələri dron və raket hücumları həyata keçirib. Dnepr, Zaporojye, Xarkov və Krivoy-Roq hücuma məruz qalıb. İki dron Sumı mərkəzindəki uşaq bağçası binasına zərbə endirərək yanğına səbəb olub. Xilasedicilər dağıntılar altında iki həlak olmuş uşaq bağçası işçisinin cəsədini tapıblar və daha yeddi nəfər yaralanıb. Mayın 7-nə keçən gecə Rusiya ordusu yenidən Ukraynaya hücum edərək yeddi istiqamətdən 100-dən çox hücum dronu buraxıb. Səkkiz kamikadze dronunun altı yerə zərbə endirdiyi və onların qalıqlarının düşdüyü qeydə alınıb. Rusiya ordusu Donetsk vilayətinin Kramatorsk şəhərinin mərkəzinə 3 fuqas aviasiya bombası atıb, nəticədə 5 nəfər həlak olub, daha 5-i yaralanıb.

### Rusiyanın hücumlarına adekvat cavab verilir

Ukrayna Prezidenti Zelenski deyib ki, Rusiya davam edən müharibəyə son qoymalıdır: "Rusların əksəriyyəti üçün internet kəsilsə və rabitə bağlansa belə, onların rəhbərliyinin bunkerlərindən çıxıb sülhü seçə biləcəyi tamamilə aydındır. Rusiya tərəfində bizim diplomatik təkliflərimiz var və lazım olan tək şey Moskvanın həqiqi sülhə doğru irəliləmək istəyidir". Bununla belə, Zelenski deyib ki, Ukrayna Rusiyanın hücumlarına "uzaqmənzilli sanksiyalar" ilə adekvat cavab verəcək. Moskva diplomatiyaya hazırdırsa, Kiyev də eyni şeyi edəcək. O qeyd edib: "Ukrayna gündən-günə daha ədalətli davranacaq. Biz 6 may gecə yarısından atəşkəs təklif etdik. Amma Rusiya atəşkəs rejimini pozur". Dövlət başçısı bildirib ki, günün əvvəlindən təcavüzkar ölkə Ukraynaya bütün mümkün vasitələrdən istifadə edərək hücumlar təşkil edir. Bunlara kamikadze dronları, raket zərbələri, cəbhə xəttində atəş və hücumlar, hava bombalarından istifadə daxildir. Zelenski vurğulayıb ki, bu, Kremlin atəşkəsi ciddi şəkildə nəzərdən keçirmədiyini göstərir və Rusiya hakimiyyətini narahat etməyə davam edən yeganə şey Qırmızı meydandakı qısamüddətli süKutdur.



### Zelenski Moskvanın təklifini "qəribə" adlandırıb

Onun sözlərinə görə, Ukrayna atəşkəs rejiminə tam əməl etməyə hazır idi, lakin bu sülh təklifinə cavab olaraq Rusiyadan yalnız yeni zərbələr və yeni təhdidlər gəldi: "Onlar Ukraynadan ildə bir dəfə meydana çıxaraq təhlükəsiz parad keçirmək üçün icazə almaq, sonra isə yenidən insanlarımızı öldürmək və müharibəni davam etdirmək istəyirlər". Zelenski Rusiyanın mayın 9-da keçiriləcək nəzərdə tutulan hərbi paradla bağlı atəşkəs təklifini "qəribə" adlandırıb: "Rusiya rəhbərliyinin məntiqi heyrət doğurur və tamamilə qeyri-adekvatdır. Rusiyaya yaxın bəzi dövlətlərdən nümayəndələrin Moskvada olacağı ilə bağlı müraciətlər də var. Qəribə istəkdir, biz bunu tövsiyə etmirik". O, dəqiqliyə görə ukraynalı hərbçilərə, Ukraynanın Xüsusi Təyinatlı Qüvvələrinə və ölkənin müdafiəsini təmin edən digər qüvvələrə minnətdarlığını bildirib. "Uzaqmənzilli zərbələrin nəticələri var. Xüsusilə Xəzər dənizi regionunda "Kalibr" raketlərini buraxa bilən raket gəmisinə zərbə vurulub. Həmçinin Perm regionunda neft sənayesi obyektinə zərbə endirilib. Halbuki bu obyekt dövlət sərhədimizdən 1500 kilometrdən çox məsafədə yerləşir. Başqa hədəflərə də zərbələr olub. Kəşfiyyatımızın məlumatına görə, Bryansk istiqamətində, Tuapsedə və Rusiyanın bəzi xüsusi neft obyektlərinə qarşı cavab tədbirlərimizin nəticələri bizi qane edir", - deyə V.Zelenski əlavə edib.

### Moskva eyni iddia ilə Kiyevi ittiham edir

Moskva da, eyni iddia ilə Kiyevi ittiham edir. Belə ki, Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, mayın 8-də elan edilən atəşkəs rejimindən bəri Ukrayna Silahlı Qüvvələri 1365 dəfə onu pozub. Nazirlik qeyd edib ki, mayın 8-i Moskva vaxtı ilə saat 00:00-a olan məlumata görə, xüsusi hərbi əməliyyat zonasındakı Rusiya qoşun qrupları "döyüş əməliyyatlarını tamamilə dayandırıb" və əvvəllər işğal etdikləri xətlərdə və mövqelərdə qalıblar. Ukrayna qüvvələri artilleriya, çoxsaylı raket sistemləri, minaatanlar və tanklardan istifadə edərək Rusiya mövqelərinə 153 artilleriya hücumu həyata keçirib, həmçinin 887 dron zərbəsi endirib.

Bundan əlavə, nazirliyin məlumatına görə, xüsusi hərbi əməliyyat zonasından kənarda yerləşən Rusiya hava hücumundan müdafiə sistemləri 390 dron və altı "Neptun" raketi də daxil olmaqla 396 hava hücumu silahını vurub. Bu arada, Rusiya Nəqliyyat Nazirliyi bildirib ki, pilotsuz uçuş aparatının aeronaviqasiya binasına zərbə endirməsi səbəbindən Rusiyanın cənubundakı 13 hava limanında əməliyyatlar dayandırılıb.

Görünən odur ki, Moskvada 9 may paradı atəşkəs şəraitində keçməyəcək. Kiyev, onun atəşkəs təklifinə əməl etməyən Moskvanı eyni yanaşma ilə "cəzalandırmaq" istəyir.

**N.BAYRAMLI**

# Tarixi razılaşma: ya İslamabadda, ya da Cenevrədə...

## ABŞ İranla yeni danışıqlar ərəfəsində

ABŞ ilə İran arasındakı danışıqlar müsbət nəticə verə bilər. Xarici media Hörmüz boğazındakı vəziyyətin pik həddə çatdığını yazır. CNN telekanalı bildirib ki, hazırda təxminən 1600 tanker və digər gəmilər Hörmüz boğazının yaxınlığında qalıb və oradan keçə bilmir. Xəbər verilir ki, ABŞ Hərbi Dəniz Qüvvələri indiyədək yalnız iki gəmini boğazdan keçirə bilib. Telekanalın məlumatına görə, ABŞ və İran arasında münaqişənin başlanmasından bəri Hörmüz boğazında 32 gəmi atəşə tutulub, nəticədə 10 nəfər ölüb, onlarla insan yaralanıb. Bir müddət öncə boğazda qalan gəmilərin müşayiəti ilə bağlı Azadlıq Layihəsi Əməliyyatı elan edilsə də, ABŞ Prezidenti Donald Tramp mayın 5-də əməliyyatı dayandırmaq əmri verib. Qeyd olunub ki, İranla danışıqların uğurla başa çatacağı və razılaşma imzalanacağı barədə məlumat alanadək Hörmüz boğazından gəmilərin keçidini təşkil edən "Azadlıq layihəsi" əməliyyatını dayandırılıb.

İran isə boğazdan keçəcək gəmilərdən əvvəlcədən məlumat təqdim edilməsini tələb edəcək. Məlumata görə, İranın yeni yaradılmış Körfəz Boğazları İdarəsi tərəfindən hazırlanan "Gəmi Məlumat Bəyannaməsi" tranzit gəmilər üçün məcburi olacaq. Sənəddə gəmi, onun sahibi, operatoru, heyət üzvləri və yük barədə məlumatların təqdim edilməsi tələb olunur. Bəyannamənin elektron poçt vasitəsilə göndərilməsi tövsiyə edilir. Keçid üçün ödəniş tətbiq olunacağı hələlik açıqlanmayıb.

**Razılaşmanın bir addımlığında**

Bu arada "Əl-Ərəbiyyə" kanalı Tehran və Vaşinqton İran blokadasının yumşaldılması ilə bağlı anlaşma əldə etdikləri ilə bağlı Pakistan rəsmisinə istinadən məlumat yayıb. Başqa bir mənbə isə bildirib ki, Amerika və İran tərəfləri arasında təmaslar heç bir manеə olmadan davam edir. Mənbə həmçinin razılığa gəlmə ehtimalına işarə edib. Əl-Ərəbiyyənin məlumatına görə, ABŞ prezidenti Donald Tramp İran tərəfindən onun təklifinə "sürətli cavab" tələb edib.

**14 maddəlik yeni memorandum...**

"Axios" isə yazıb ki, Tehran anlaşma memorandumuna cavab verməsə, ABŞ İrana qarşı hərbi əməliyyatlara başlaya bilər. Nəşrin qeyd etdiyi kimi, Donald Tramp 15 mayda Çinə səfərinin sonuna qədər diplomatik irəliləyiş əldə olunacağına ümid edir. Axios-un Amerika mənbələrinə istinadən verdiyi məlumata görə, Tehran iki gün ərzində anlaşma memorandumuna cavab verməsə, ABŞ İrana qarşı hərbi əməliyyatlara başlaya bilər.

Ağ Evin təklif etdiyi 14 maddəlik memorandumda ABŞ sanksiyalarının qaldırılması, aktivlərin dondurulmasının aradan qaldırılması və Hörmüz boğazından sərbəst naviqasiyanın bərpası müqabilində uranın zənginləşdirilməsinə moratorium nəzərdə tutulur. "Axios" xəbər verir ki, ABŞ prezidentinin xüsusi elçisi Stiven Vitkoff və iş adamı Cared Kuşner bir neçə İran rəsmisi ilə birgə memorandumu müzakirə edirlər. Danışıqlar "həm birbaşa, həm də vasitəçilər vasitəsilə" aparılır. Memorandumun qəbulu ilə ABŞ-ın Tehrana qarşı sanksiyalarının ləğvi üçün ətraflı razılaşma üzrə 30 günlük danışıqlar müddətinin başlanması elan ediləcək. Bu danışıqlar İslamabadda və ya Cenevrədə baş tuta bilər. ABŞ rəsmilərindən birinin sözlərinə görə, 30 günlük müddət ərzində İranın boğazdan gəmiçiliklə bağlı məhdudiyyətləri və ABŞ-ın dəniz blokadası tədricən aradan qaldırılacaq.

**Uran üçün 15 il?**

Uranın zənginləşdirilməsi moratoriumunun müddəti aktiv danışıqların mövzusu olacaq. Müddət məsələsi isə hələ dəqiqləşməyib - bəzi mənbələr moratoriumun 12, bəzi mənbələr isə 15 il olacağı ehtimalını irəli sürürlər. İran əvvəllər 5 illik zənginləşdirmə moratoriumu təklif etsə də, ABŞ 20 il tələb etmişdi. Mənbə bildirib ki, ABŞ müqaviləyə İranın zənginləşdirmə şərtlərini pozduğu təqdirdə moratoriumun uzadılmasını nəzərdə tutan bir müddəa daxil etmək istəyir. Bu müddətdən sonra İran uranı 3,67 faizə qədər zənginləşdirə biləcək.

Memorandumda İran nüvə silahı əldə etməməyi və BMT müfəttişləri tərəfindən planlaşdırılmamış yoxlamalar da daxil olmaqla gücləndirilmiş yoxlama rejiminə riayət etməyi öhdəsinə götürür. ABŞ rəsmisinin sözlərinə görə, tərəflər İranın yeraltı nüvə obyektlərini işlətməməsini tələb edən bəndi müzakirə edirlər.

Axios həmçinin iki mənbəyə istinadən xəbər verir ki, İran yüksək dərəcədə zənginləşdirilmiş uranı ölkədən çıxarmağa razı olacaq. Bu, ABŞ-ın əsas tələblərindən biridir və Tehran əvvəllər bundan imtina etmişdi. Uran birbaşa ABŞ-a göndərilə bilər. Memoranduma əsasən, ABŞ İrana qarşı sanksiyaları tədricən aradan qaldırmağı və dünya miqyasında dondurulmuş milyardlarla dollarlıq İran vəsaitlərini azad etməyi öhdəsinə götürür.

**Tramp nikbindir...**

Donald Tramp çərşənbə axşamı Ağ Evin İranla münaqişənin diplomatik yolla həlli ehtimalına nikbin baxdığını təsdiqləyib. Dövlət başçısı "Oval kabinetdə" jurnalistlərə bildirib ki, "Onlar razılaşma əldə etmək istəyirlər. Son 24 saat ərzində çox yaxşı danışıqlar apardıq və razılığa gəlməyimiz mümkündür."

ABŞ prezidenti həmçinin razılaşmaya nail olmaq üçün 30 günlük müddətə ehtiyac olmaya biləcəyinə də işarə edib. Jurnalistlərə açıqlamasında Tramp "heç bir son tarix yoxdur" deyib.

Bu arada, administrasiya danışıqların təfərrüatları barədə faktiki olaraq susur - baxmayaraq ki, Tramp və digər rəsmilər müntəzəm olaraq bu istiqamətdə uğura doğru irəlilədiklərini bildirirlər. Ağ Ev problemin "zorla həllinin" istisna edilmədiyinə işarə etsə də, yenə də açıq şəkildə bunun baş verməyəcəyinə əminliyini ifadə edir. Bir sıra siyasi şərhçilər Prezident Trampın Hörmüz boğazında elan edilmiş Azadlıq Layihəsi Əməliyyatından imtinasını da kövrək atəşkəsi pozmamaq qərarının bir hissəsi kimi dəyərləndirirlər.

**Danışıqlar uğursuz olarsa...**

Danışıqlar uğursuz olarsa, ABŞ qüvvələri blokadanı yenidən tətbiq edə və ya hərbi əməliyyatları davam etdirə bilərlər. Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) İranın dəniz blokadasına nə qədər davam gətirə biləcəyini qiymətləndirib. The Washington Post (WP) kəşfiyyat agentliyinin qiymətləndirmələri ilə tanış olan dörd mənbəyə istinadən, MKİ-nin İranın daha ciddi iqtisadi problemlərlə üzləşməzdən əvvəl 90-120 gün və bəlkə də daha uzun müddət ABŞ blokadasına davam gətirə biləcəyinə inandığını bildirib.

Mərkəzi Kəşfiyyat İdarəsinin təhlili həmçinin göstərib ki, Tehran döyüşlərin intensivliyinə baxmayaraq xeyli sayda ballistik raket saxlayır. Adı çəkilməyən bir rəsmi bildirib ki, İran müharibədən əvvəlki buraxılış qurğularının təxminən 75 faizini və müharibədən əvvəlki raket ehtiyatlarının təxminən 70 faizini qoruyub.

*P.İSMAYILOV*



# Vücudunun məzarından qalxan ruh

## Lev Tolstoyun "Dirilmə" romanı haqqında

Əlli yaşlarından sonra Tolstoyun düşüncəsində kəskin dönüş baş verdi, "Hərb və sülh"ün, "Anna Karenina"nın müəllifi həyata sevgisini, yaşamağın dadını, insana, insanlığa inamını itirməyə başladı. O vaxtacan ona dişi batmayan şeytan dünyanın ən kamil romanlarını qələmə almış, qalxdığı zirvədən həyata üstdən-aşağı baxan yazıçını şübhə toruna, qorxu tələsinə salıb təntitdi, ölüm xofu ölümə artıq qalib gəlmiş dahini qabağına qatıb əsir-yesir elədi.

Bu əhval sənətkarın yaradıcılığına da təsirsiz ötüşmədi, indiyə qədər yazdıqları, bütövlükdə bədii ədəbiyyat ona puç, mənasız göründü, qərara gəldi ki, bundan sonra ancaq dini-fəlsəfi risalələr, bir də olsa-olsa ibrətamiz hekayələr, uşaqlar üçün nəsihətamiz nağıllar yazsın. Doğrudur, onun ilham köhləni sahibinin bu qəribə qərarına tam da boyun əymədi, hərdən cilovunu qırıb yiyəsini yenidən dağa-daşa saldı, insan ayağı dəyməmiş çöllərdə dolaşdı, keçilməz gədiklərdən aşdı; di gəl, Tolstoy yaradıcılığındakı əvvəlki saf sevgidən, pak məhəbbətdən də əsər qalmadı, sevgi yerini günaha, məhəbbət həyəcanları yerini əzab çırpıntılarına, ilahi eşqin bəxtiyarlığı yerini şəhvətin şeytani vəsvəsəsinə verdi.

Qəribədir ki, bütün bunlar Dostoyevskinin ölümündən sonra baş verdi, elə bil, eyni səmtə getsə də üzünü heç vaxt görmədiyi ən doğma adamından sonra əmələ gəlmiş mənəvi boşluğu doldurmaq üçün Tolstoyun yaradıcılığında dostoyevskiləşmə prosesi işə düşdü, Lev Nikolayeviç özünə xas mövzulardan uzaqlaşıb, geriyə dəmzdim, yana addım atdı, "Cinayət və cəza" temasına aludə oldu. Hətta mütaliəsində də dönüş yarandı, artıq gözündə dəyəri qalmamış dünya şöhrətli əsərlərini nəzərdən salıb, ahıl çağında bədii ədəbiyyat adına yalnız Dostoyevskini oxumağa, yalnız onun yaradıcılığından təsəlli almağa başladı. İndən belə Tolstoyun da əsərlərində əzabdan, işgəncədən, mazoxistik mərhəmətdən xali saf məhəbbətə, şəhvətə çevrilmə mexanizmi olmayan məsum sevgiyə, şeytana bulaşmamış duru könülə rast gəlinməyəcək, bundan sonra böyük yazıçı knyaz Andrey Bolkonskiyə, Anna Kareninaya bənzər obrazlar yarada bilməyəcək. İndi onun əsərləri eynən Dostoyevski yaradıcılığının yetkin mərhələsində yazılmış romanlar kimi İncil ehkamlarının sübuta yetirilməsinə həsr olunacaq (zatən ona qədər yazdıqları da dinəimana söykənirdi, həm də heç bir dəlilə-sübuta ehtiyac duymadan, sadəcə, insan qəlbindəki latent inamı, istifadəsiz müqəddəs duyğuları işlək hala gətirməklə): "İvan İliçin ölümü", "Kreyser sonatası", "Sergi ata", "Şeytan", "Ağa və nökər", "Saxta kupon"...

O dövrdə Tolstoyun qaynar gənclik şövqüylə, coşqun həyat eşqiylə yazdığı tək bir işıqlı əsər var - o da yetmiş yaşlarında qələmə aldığı, gün üzünə müəllifin ölümündən sonra çıxarılmış "Hacı Murad" povestidir. Bu povest yazıçının otuz beş yaşında dərc etdiyi "Kazaklar"la aşağı-yuxarı eyni illərdə özünü yazdırmalıydı, ancaq nədənsə dəstədən azıb müəllifin qocalığına güc-bəlayla yetişmişdi.

***

Həmin illərdə İsa Məsih təlimini yenidən dəyərləndirən yazıçı gərgin axtarışları nəticəsində belə qənaətə gəlmişdi ki, onun ölkəsində insanlar dindən-imandan tamam uzaq həyat sürürlər, rus cəmiyyəti İncilin sülhə, qardaşlığa çağıran buyruqları əsasında da yox, Tövratın qisasa, savaşa səsləyən təcavüzkar əmrləri, ehkamları babında idarə olunur. Dövlət aparatı, ordu, polis, məhkəmə sistemi, dini institut Lev Nikolayeviçin gözündə şəri şərlə sağaltmağa, zorun qarşısını zorla almağa çalışan, hər addımda İncil təlimatlarının əleyhinə gedən azman bir iblisanə mexanizmə, şeytan çarxına çevrilmişdi. Bu məsələlərdə barışmaz mövqe tutduğuna görə çoxu onu radikal anarxizmə, nihilizmə, ateizmə yuvarlanmaqda, patriotizmə xor baxmaqda qınayırdı, iş o yerə çatmışdı ki, pravoslav kilsəsi onun çıxışlarını küfr, sapıqlıq kimi dəyərləndirib dünyanın ən qatı İsa divanəsini dindən kənar elan eləmişdi.

Dostoyevski, əlbəttə, onun kimi davranmazdı, özünü monarxa, kilsəyə qarşı qoymazdı, çarla da, mütləqiyyətin keşiyində duran məbədlə də yanaşı addımlayardı, onlarla rahat uzlaşıb asanca dil tapardı. Dini müharibələri də dəstəkləyərdi, necə ki, sağlığında dəstəkləmişdi; hətta bu məsələdə soyuq davrandığına görə sənətkarlığına heyran qaldığı Tolstoyu ideoloji laqeydliyi ucbatından qınamışdı da.

Yeri gəlmişkən, Tolstoyun təlimini, daha doğrusu, xristianlığın Tolstoy yozumunu günü bu gün də anarxizmə bənzədənlər var. Bu bənzətmədə gerçəkdən pay olsa da, məncə, tolstoyçuluğu anarxizmlə eyniləşdirmək olmaz: əvvəla, anarxistlər dövlət, cəmiyyət, ailə kimi institutlarla yanaşı hər cür dinə, ehkama da xor baxırlar, Tolstoy isə öz məbədini başdan-ayağa İncil ehkamlarının təməli üstündə dikəldib; ikincisi, anarxizm ifrat fərdiyyətçilik, eqoizm üzərində qurulub, Tolstoy isə yüzfaizlik altruizmə söykənən ideal toplum, başqaları uğrunda fədakarlığa müntəzir kamil fərdlərin könül qardaşlığı şəklində ilahi səltənət arzusundadır; üçüncüsü, anarxizmin ali məqsədi mütləq azad fərd, Tolstoyun idealı isə həmin azad fərdlərin qovuşduğu ruhani cəmiyyətdir, yəni Tolstoy anarxizmdən sonrakı mərhələdir, ondan bir baş yuxarıdır, aralarındakı fərq də Buddadan Məsihə qədərdir.

Eyni düşmənlə mübarizəyə qalxmaq eyni hədəfə can atmaq demək deyil. Hər üçü klassik dövlət quruluşunun varlığına son qoymağa çağırsa da, buna qarşı liberal bir, anarxist ayrı, idealist tamam başqa alternativ çıxarır.

***

"Dirilmə" romanı Tolstoy yaradıcılığının yekun mərhələsinin aparıcı əsəridir, bir növ həmin dövrün ədəbi xülasəsidir. Ona qədər uzun müddət iri əsər yazmayan yazıçı üçüncü-sonuncu romanını fasilələrlə on ilə başa gətirib, on doqquzuncu əsrin sonlarında - 1899-cu ilin dekabr ayında, yetmiş iki yaşına adladığı aralıqda tamamlamışdı. Əgər "Hərb və sülh" qəhrəmanlıq (müharibə) epopeyası tərzində, "Anna Karenina" məhəbbət (ailə) dastanı janrında qələmə alınmışdısa, "Dirilmə" əsəri sosial-siyasi roman qəlibindən çıxıb. Əlbəttə, üç romanın üçünün də ideyası, məzmunu xristianlığın ana qaynağı dörd İncildən bəhrələnməklə hansısa qəlibə oturdulub, yəni mövzular, süjetlər, fonlar, zamanlar fərqli olsa da, ideya, məram birdir: istər qanlı savaşlar olsun, istər çılğın ehtiraslar, istərsə də sosial ədalətsizlik, hamısının öhdəsindən gəlməyin bircə yolu var - mömin bəndənin timsalında ən yüksək dərəcəyə çatan mənəvi yetkinlik, Allaha saf inam sayəsində cücərən ümumbəşəri qardaşlıq duyğusunun barı-bəhəri kamil insanlıq.

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## Şənbə üçün nəzm









*Kəmalə Abıyeva*

Boynu bükük bir atanın
gözlərindən cığır salan,
bir ananın saçlarında
dən-dən olan dərd gördünmü?

O saçlarda dolandınmı?
O gözlərdən həyatına
boylandınmı?
Sən kədəri gördünmü heç?
Bilirsənmi necə olur?

Kədər vətən yarasıdı,
kədər torpaq ağrısıdı.

Bəs sevinci gördünmü sən?
Hələ gizlənqaç oynamaq arzusunun
torpaq üçün
şəhid olmaq arzusunda ölməsində,

Atasının daş şəklinə
qucaq açan bir körpənin
gülməsində,

ağrı içində qıvrılan,
kədərlə qol-boyun olan
o sevinci gördünmü sən?

Dərdlərini, kədərini
yığ üst-üstə,
bax sevincin gözündəki
o qürurlu kədərə bax
protez üstə
və həyatdan sevinc istə.
Gör, olurmu?

Olmasa da, heç darılma.
Bir də qar soyuqluğunu
duymayacaq uşaqlığın,
qartopu oynamaq istəyinin
əlindən tut,
bütün dərdlərini unut.

***

Soruşmayın halımı,
soruşmayın necəyəm,
daha bir az fərqliyəm,
əvvəlki tək deyiləm.

Bir az gecə kimiyəm,
bir az gündüz kimiyəm.
Ömrümü tüstülədən
sönməyən köz kimiyəm.

Baxışları didərgin,
yurdsuz bir göz kimiyəm.

Daha hər şey fərqlidi,
əvvəlki tək deyil ki.
Dəniz də həmin deyil,
dərdlidi elə bil ki.

Göylər də həmin deyil,
buludlar da həminki.
Mən də bir az başqayam,
mən də bir az fərqliyəm.

Soruşmayın halımı,
soruşmayın necəyəm.

Sevinməyi tərgidən,
dilimdə çoxdan ölən,
ürəyimə gömülən
söz kimiyəm bir az da.

Bəlkələr ovutmayan,
təsəllisi olmayan,
ümidi tapılmayan
döz kimiyəm bir az da.

***

Daha səbr etməyə
səbrim də çatmır.
Sənin yaratdığın dünya dağılır.

Nə ağac ağaca oxşayır daha,
nə yamac yamaca oxşayır daha.

Tikanla çiçəyin
fərqi bilinmir.

Suala qarışıb
bütün cavablar.
Tanrı, mənim sənə
şikayətim var.

Əzrail bir idi,
dönüb min olub.
Şeytana uyanlar
artıb çoxalıb.

Şeytanı daşlayan
başlar çoxalıb,
şeytana uymayan
çarəsiz qalıb.

Şeytanla mələyin
fərqi bilinmir.
Cavaba dönübdü
bütün suallar.

Tanrı, mənim sənə
şikayətim var.

Həyat həyat deyil,
tilsim olubdu.
Yaxşılar yamana
təslim olubdu.

Sevgi də, nifrət də
batıb günaha.
Haqq da, həqiqət də
batıb günaha.

Yalanla gerçəyin
fərqi bilinmir.
Cavabsız qalıbdı
bütün suallar.

Tanrı, mənim sənə
şikayətim var.

***

Elə darıxdım ki bu yer üzündə,
buludlara dönüb çəkildim göyə.
Göyə də sığmadım, səpildim yerə,
bəlkə bir damcımı tapasan deyə.

Elə darıxdım ki, elə darıxdım,
nə yerə, nə göyə sığa bilmirəm.
Elə darıxdım ki, darmadağınam,
özümü bir yerə yığa bilmirəm.

Günlər ilə döndü, darıxdı zaman,
ayların, illərin yaddaşı oldun.
Mən bir dünya qurdum xəyallarımdan,
sənsə o dünyanın yad daşı oldun.

Elə darıxdım ki, mən bu şəhərdə
bir küçə, bir qapı olmaq istədim.
Dedim o küçədən keçib yenə də
bəlkə o qapını döymək istədin.

Döndün mənim gerçək bir yalanıma,
sənli həqiqəti görmədim ki heç.
Özümü aldatdım öz yalanımla,
əgər günahdısa, bu günahdan keç.

Elə darıxdım ki, sənli qəlbimi
darıxan əlimlə sökmək istədim.
Elə darıxdım ki, mən səni deyil,
başqa birisini sevmək istədim...

***

Qapımı döy qəfildən,
yenə yanıma gəl sən.
Qapını döyməyindən
bilim ki, gələn sənsən.

Tut əlimdən ehmalca,
yenə də əvvəlki tək.
Sıx köksünə bir azca,
saçlarıma sığal çək.

Yenə yanıma gəl sən,
yenə kefimi soruş.
Bir az olub-bitəndən,
bir az özündən danış.

Bu sevgidən dəyərli
axı var ki nəyimiz?
Ayrılanda dərd-qəmli,
birlikdə xoşbəxtik biz.

Axı ayrılmaq üçün
bəhanə var, səbəb yox.
Amma ayrılmamaqçün
bəhanə yox, səbəb çox.

Yenə yanıma gəl sən,
heç nə olmamış kimi.
Yenə yanıma gəl sən,
heç ayrılmamış kimi.

Biz xoşbəxt olmuruq ki,
ayrılırıq nafilə.
Niyə gəlməyəsən ki,
sən bunu bilə-bilə?

Günahkar axtarmayaq,
nə olubsa unudaq.
Yenə yanıma gəl sən,
sadəcə xoşbəxt olaq.

***

Səhərlər Xəzərdə güzgülənərək,
qızılı saçların darayır günəş.
Sevgidən alışıb yanan ürək tək,
Bakımla göz-gözə dayanır günəş.

Doymayır hüsnündən hər gün görsə də,
mənimtək Bakıma olubdu vurğun.
Bəlkə də qəlbinin günəş Xəzərdə
səma həsrətini ovudur hər gün.

Şirin yuxusundan günəş hər səhər
odlu öpüşlərlə oyadar onu.
Bakım min naz ilə durub geyinər
onun bəxş etdiyi qızılı donu.

Təbəssüm səpərək nurlu üzündən,
qızılı saçların darayır günəş.
Bəlkə də Bakımın mavi gözündə
sevgisinə cavab arayır günəş

# Yazıçı yetişdirmək

## Mümkündür, amma olmaz...



*Məqsəd Nur*

Əgər Bakı əncirinin tingini Kəlbəcər dağlarında əksək, bitməyəcək. Durub həmin tingin birini də aşağılara - Tərtərə, Ağdərəyə endirsək, boy verəcək, ağac olacaq, məhsuldarlıq da göz oxşayacaq - məhz göz oxşayacaq, di gəl, Bakıənciri olmayacaq. Nə illah edirlər, Bığır narı Abşeronda çürüyür, Naxçıvan göycəsinə bütün aqrotexniki xidmət və digər tələb olunan gübrələr verilsə də öz coğrafi ərazisindən kənarda dadını-duzunu itirir. İnsan elə deyil, uyğunlaşması daha çevik baş verir...

Bəlkə buna görə, sovet hökuməti yazıçı, şair “yetişdirə” bilirdi? Bu da sualdır: yetişdirə bildimi? Bəzən köklər öz “DNA”sını qoruyub saxlamaq üçün torpağın müxtəlif qatlarında mürəkkəb “kombinasiyalara əl ata” bilir. Necə ki, sovet ədəbiyyatının əksər görkəmli müəllifləri buna cəhd etdi, Ədəbiyyat yaratdı...

Ekstremal situasiyalar hal dəyişdirə bilir. Nəticələr gözlənilməz olur. Sovetlərdə də belə alındı. Pis, yaxşı, məhsuldarlıq var. Fəqət, sovetlərin bu çeşnisi müasir Qərbə də keçməyə? Son otuz ildə, Qərbdən dünyaya - yazıçı yetişdirmək cəhdləri sürətlə artıb. Qlobal nəşriyyatlar kitab sənayesini daha da industriallaşdırmaq üçün əsas həlqəni - yazıçını süni şəraitdə, inkubasiya şərtləri daxilində yetişdirməyə çalışıb. Budur, bir-birini təkrarlayan mətnlər, harada olmasına, hansı mədəniyyəti daşımasına baxmayaraq, eyni cür düşünən, ağrıyan, görən və hər şeyi təxminən eyni tərzdə fiksasiya edən müəlliflər ordusu göz qabağındadır. Bunun bir ucu qlobal istehlakçılıqdan qaynaqlansa da digər ucu məhz “yetişdirmə”dədir...

Əlbəttə, master-klaslar, müxtəlif səviyyəli, ödənişli kurslar bəzən özlərini keçmişdən gələn ədəbi məclislərin, hərəkat və fəlsəfi cərəyanların genetik davamçıları hesab edirlər. Əvvəlki dövrlərdə istər cərəyanlar, istərsə də məclislər Ədəbiyyata ayrıca, danılmaz faydalar verirdi. Fəqət, sırf kommersiya istiqamətli “yaradıcı” “yazıçı” yetişdirmək bozludur. Olsun, bu, Ədəbiyyatı təklənməyə, arınmağa sövq edir. Yaxşı ki, belədir: Ədəbiyyat da bundan sonra nə edəcəyinə özü qərar verəcək...

Məsələ burasındadır ki, ödənişli kurslarda pinəçidən tutmuş peşəkar jurnalistə qədər hər cür peşə adamı yetişdirmək olar. Hətta yazı qabiliyyətlərinin artırılması üçün gözəl ölkəmizin əsasən şifahi düşünən gözəl insanlarının yazı qabiliyyətlərinin artırılması istiqamətində əvəzsiz xidmətlər də göstərmək mümkündür. Bircə, “yazıçı” “yaradıcı” yetişdirmək israr edilməsin.Bakıənciri kimi, yad ərazidə bitməyəcək. Bitsə də yalandan göz oxşayacq. Bizə ədəbiyyatın dadı və faydası lazımdır, yoxsa siması, görünüşü? Bu suallara da zaman cavab verəcək...

“Mədəniyyət -2040” konsepsiyası çərçivəsində bu suallara da cavab tapmağa çalışmamalıyıqmı? Yazıçı yetişdirməkdənsə, proses yetişdirilməməlidir? Bəlkə yazıçı çayır otu olmalıdır? Yoxsa, broyler toyuqlara bənzəməyəcək?

# İllərin həsrətindən sonra...

## Ağdam və Xocavənddə həyat yenidən canlanır

Uzun illər həsrəti çəkilən işğaldan azad edilmiş torpaqlarımıza qayıdış davam edir. Doğma torpaqlarımız yenidən öz sakinlərinin səsi, həyəti, ocağı və nəfəsi ilə canlanmağa başlayır. Uzun fasilədən sonra həmin rayonlara köç karvanlarının yola salınması yaddaşların yenidən dirçəldilməsi, uşaqlıq xatirələrinin geri qayıtması və illərlə ürəklərdə qorunan “bir gün mütləq dönəcəyik” ümidinin gerçəyə çevrilməsidir.

Dünən respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrin bir qrupu Bakıdan Ağdam və Xocavənd şəhərlərinə yola salınıb. Bu mərhələdə Ağdam şəhərinə 41 ailə - 156 nəfər, Xocavənd şəhərinə isə 57 ailə - 206 nəfər köçürülüb.

Xatırladaq ki, Xocavənd və Ağdam 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın nəzarətinə qaytarıldı, amma proses fərqli yollarla oldu. Ağdam hərbi əməliyyatlardan sonra imzalanan 10 noyabr 2020-ci il üçtərəfli bəyanatına əsasən Ermənistan tərəfindən Azərbaycana təhvil verildi. Azərbaycan ordusu 20 noyabr 2020-ci ildə Ağdamı işğaldan azad etdi.

Xocavənd rayonunun böyük hissəsi isə



müharibə zamanı Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində azad edilmişdi. Rayonun bəzi ərazilərində bir müddət Rusiya sülhməramlıları yerləşmişdi. 2023-cü ilin sentyabrında keçirilən lokal antiterror tədbirlərindən sonra Xocavəndin qalan hissəsi də tam şəkildə Azərbaycanın nəzarətinə keçdi.

İşğaldan azad edilmiş digər torpaqlarımız kimi, Xocavəndə və Ağdama qayıdan ailələrin də hissləri sözlə ifadə olunacaq qədər sadə deyil. Çünki bu dönüş adi bir köç deyil, illərlə davam edən ayrılığın bitməsi, insanların taleyində yeni bir səhifənin açılması və Vətənə bağlılığın nə qədər güclü olduğunu bütün dünyaya göstərən böyük bir qayıdışdır. Yaşlı insanların torpağı öpərək göz yaşlarını gizlədə bilməməsi, gənclərin isə gələcək planlarını sevinc içində danışması bu günün nə qədər möhtəşəm və duyğulu olduğunu bir daha göstərir.

**Dağıntılardan dirçəlişə...**

Bu gün Ağdam və Xocavənddə qurulan yeni həyat müasir infrastruktur, rahat yaşayış şəraiti və yenilənən sosial mühitlə fərqlənsə də, həmin torpaqların ən böyük gözəlliyi illər sonra geri dönən insanların sevincində, doğma yurda qayıdışın yaratdığı qürur hissində öz əksini tapır. Çünki Qarabağa dönüş prosesi artıq tarix kitablarından çıxaraq canlı həyatın ən təsirli səhifəsinə çevrilməyə davam edir.

İşğaldan azad olunduqdan sonra Ağdam və Xocavənddə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq prosesi təkcə dağıdılmış şəhər və kəndlərin yenidən tikilməsi ilə məhdudlaşmır. Eyni zamanda uzun illər ərzində viran qalmış bir bölgənin müasir texnologiyalar, dayanıqlı infrastruktur və innovativ şəhərsalma prinsipləri əsasında yenidən həyata qaytarılması kimi strateji və tarixi bir mərhələ diqqət çəkir.

Ağdamda salınan yeni avtomobil yolları, kommunikasiya xətləri, elektrik yarımstansiyaları, içməli su və kanalizasiya sistemləri



bölgənin gələcək inkişafı üçün mühüm baza formalaşdırır. Vaxtilə tamamilə dağıdılmış ərazilərdə indi müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar və sosial obyektlər inşa olunur və bu dəyişikliklər şəhərin simasını tamamilə yeniləyərək onu regionun ən müasir yaşayış məkanlarından birinə çevirməyə başlayır.

Xocavənddə aparılan yenidənqurma işləri isə xüsusilə dağlıq relyefə uyğun planlaşdırılan infrastruktur layihələri ilə seçilir. Burada həm kənd təsərrüfatının inkişafı, həm turizm potensialının artırılması, həm də rahat yaşayış mühitinin yaradılması məqsədilə yeni yollar çəkilir, enerji təminatı gücləndirilir, internet və rabitə şəbəkələri qurulur. Eyni zamanda kənd və qəsəbələrdə müasir standartlara cavab verən evlər tikilərək bölgənin sosial-iqtisadi dirçəlişinə təkan verilir.

Azad edilmiş ərazilərdə tətbiq olunan “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyaları Ağdam və Xocavənddə də xüsusi əhəmiyyət daşıyır. Çünki burada alternativ enerji mənbələrinin istifadəsi, rəqəmsal idarəetmə sistemləri, ekoloji balansın qorunması və müasir xidmət infrastrukturunun qurulması gələcəkdə bu rayonların yalnız yaşayış məkanı deyil, həm də innovativ inkişaf nümunəsi kimi tanınmasına imkan yaradır.

Bu gün Ağdam və Xocavənddə yüksələn yeni binalar, gecələr işıqlanan küçələr, yenilənən sosial obyektlər və mərhələli şəkildə geri qayıdan həyat onu göstərir ki, həmin ərazilərdə aparılan quruculuq prosesi yalnız fiziki dağıntıların aradan qaldırılması deyil, həm də insanların doğma torpaqlara bağlılığının, dövlətin gücünün və Qarabağın yenidən dirçələn ruhunun simvoluna çevrilib...

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5212**
**Sifariş: 604**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova